AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

8 noyabr 2017-ci il | № 77-80 (9171) | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU XƏTTİNİN AÇILMASI AZƏRBAYCAN PREZİDENTİNİN STRATEJİ TƏŞƏBBÜSÜNÜN BƏHRƏSİDİR



*Azərbaycan müəllifi olduğu daha bir möhtəşəm beynəlxalq iqtisadi layihənin həyata keçməsinə nail oldu.*

Səh. 2

### RUSİYA BİRLƏŞMİŞ GƏMİQAYIRMA KORPORASİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər heyəti ilə Rusiya Federasiyasının Birləşmiş Gəmiqayırma Korporasiyasının nümayəndələri arasında işgüzar görüş keçirilib. Görüş zamanı qonaqlar təmsil etdikləri şirkət haqqında ətraflı məlumat veriblər.*

Səh. 3

### YENİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANININ TİKİNTİSİ SÜRƏTLƏ DAVAM EDİR



*Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi sürətlə davam edir.*

*Azərbaycan Respublikası Prezidentinin "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisi haqqında" 2007-ci il 18 oktyabr tarixli Sərəncamının icrası olaraq, Ələt qəsəbəsinin ərazisində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi həyata keçirilir.*

Səh. 4

### "LNG TEXNOLOGİYALARI"NIN AZƏRBAYCANDA İSTİFADƏSİ İLƏ BAĞLI TƏQDİMAT



*Energetika Nazirliyinin dəstəyi ilə "Wartsila" korporasiyası tərəfindən "LNG texnologiyaları"nın Azərbaycanda istifadəsi ilə bağlı təqdimat keçirilib.*

Səh. 5

### YUNESKO-NUN RƏSMİ FƏALİYYƏTƏ BAŞLAMASINDAN 71 İL ÖTÜR

*Noyabrın 4-ü BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatı - YUNESKO-nun rəsmi fəaliyyətə başladığı gündür.*

YUNESKO 1946-cı ildə 20 üzv dövlətlə rəsmi olaraq fəaliyyətə başlayıb. Qurumun fəaliyyəti təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlib.

Səh. 6

### BAKI LİMANININ ƏRAZİSİNDƏ "FİTZONA" İDMAN MEYDANÇASI AÇILIB



*"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin Əsas Yük Terminalında korporativ sosial məsuliyyət proqramı çərçivəsində "IVY GROUP" şirkəti ilə birgə təşkil etdiyi "Fitzona" idman meydançasının açılış mərasimi keçirilib.*

Səh. 8


### Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444; 2006, № 12, maddə 1029; 2007, № 5, maddə 442, № 6, maddə 562, № 8, maddə 756; 2009, № 12, maddə 948; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 643; 2013, № 3, maddə 214; 2014, № 4, maddə 325; 2015, № 1, maddə 1; 2016, № 1, maddə 7) aşağıdakı dəyişikliklər edilsin:

1. 278.1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"278.1.1. "Xilasetmə haqqında" 1989-cu il tarixli Beynəlxalq Konvensiyanın 14-cü maddəsinə uyğun olaraq, müvafiq halda xüsusi təzminat ilə əlaqədar hər hansı bir tələb və ya ümumi qəza üzrə ianə daxil olmaqla, xilasetmə ilə əlaqədar tələblərə;".

2. 280.1.1.1-ci maddədə "500" rəqəmi "2000" rəqəmi ilə, "333 min" sözləri "3,02 milyon" sözləri ilə əvəz edilsin.

3. 280.1.1.2-ci maddədə "501" rəqəmi "2001" rəqəmi ilə, "3000" rəqəmi "30000" rəqəmi ilə, "500" (birinci halda) rəqəmi "2000" rəqəmi ilə, "500" (ikinci halda) rəqəmi "1208" rəqəmi ilə əvəz edilsin.

4. 280.1.1.3-cü maddə ləğv edilsin.

5. 280.1.1.4-cü maddədə "500" rəqəmi "2000" rəqəmi ilə, "250" rəqəmi "906" rəqəmi ilə əvəz edilsin.

6. 280.1.1.5-ci maddədə "500" rəqəmi "2000" rəqəmi ilə, "167" rəqəmi "604" rəqəmi ilə əvəz edilsin.

7. 280.1.2.1-ci maddədə "500" rəqəmi "2000" rəqəmi ilə, "167 min" sözləri "1,51 milyon" sözləri ilə əvəz edilsin.

8. 280.1.2.2-ci maddədə "501" rəqəmi "2001" rəqəmi ilə, "3000" rəqəmi "30000" rəqəmi ilə, "500" rəqəmi "2000" rəqəmi ilə, "167" rəqəmi "604" rəqəmi ilə əvəz edilsin.

9. 280.1.2.3-cü maddədə "3001" rəqəmi "30001" rəqəmi ilə, "500" rəqəmi "2000" rəqəmi ilə, "125" rəqəmi "453" rəqəmi ilə əvəz edilsin.



10. 280.1.2.4-cü maddədə "500" rəqəmi "2000" rəqəmi ilə, "83" rəqəmi "302" rəqəmi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 oktyabr 2017-ci il.***

---

### "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 808-VQD nömrəli Qanununun tətbiqi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 808-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 noyabr 2017-ci il.***

---

# BAYRAM TƏBRİKİ



### *Əziz həmkarlar!*

Qarşıdan bütün xalqımız üçün bir-birindən əlamətdar bayramlar gəlir. Sizi 9 noyabr - Dövlət Bayrağı Günü və 12 noyabr - Konstitusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, səadət və müstəqil Azərbaycanımızın tərəqqisi naminə çətin və şərəfli işinizdə yeni-yeni uğurlar arzulayıram.

Hər xalqa müstəqil dövlət qurmaq və müstəqilliyini təcəssüm etdirən bayrağını göylərdə dalğalandırmaq səadəti nəsib olmur. Azərbaycan xalqı da belə səadətin sevincini yaşayan xalqlardandır. Bu gün milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirən üçrəngli bayrağımızın dünyanın 180-dən artıq müstəqil dövlətinin bayraqları ilə bir sırada dalğalanmasından sonsuz iftixar hissi keçirdiyimiz kimi, hər bir müddəası xalqın iradəsini ifadə edən Əsas Qanunumuzla da haqlı olaraq fəxr edirik.

Üçrəngli bayrağımız həm də xalqımızın kimliyini ifadə edir. Yaradıcısı Ulu öndər Heydər Əliyev olan, bütün insan hüquqları təsbit edilən Konstitusiyamız isə həm də xalqımızın azad, demokratik dövlət qurmaq, dünya birliyində layiqli yer tutmaq istəyini, sülhə, tərəqqiyə, bəşəriyyətin inkişafına öz töhfəsini bəxş etmək əzmini nümayiş etdirir.

Milli suverenliyin simvolu olan üçrəngli bayrağımızın dövlət atributu kimi bərpası Ulu öndərimizin adı ilə bağlıdır. Üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada muxtar respublikanın dövlət bayrağı kimi qəbul olunub. 1991-ci il oktyabrın 18-də müvafiq Konstitusiya aktı ilə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edərkən, onun dövlət rəmzlərini, o cümlədən üçrəngli dövlət bayrağını da qəbul edib.

Bütün sahələrdə Ulu öndərin siyasətini layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin milli ideallara bağlılığı özünü üçrəngli bayrağımıza münasibətdə də qabarıq göstərir. Müvafiq fərman və sərəncamları ilə 9 noyabr - Dövlət Bayrağı Gününün təsis edilməsi də, Bakının ən münasib ərazisində Dövlət Bayrağı Meydanının, həmin meydanda Dövlət Bayrağı Muzeyinin yaradılması da milli atributlarımızı daim uca tutan ölkə başçımızın bayrağımıza sonsuz sevgisinin təcəssümüdür.

Gəmilərimizin də dor ağacında müstəqilliyimizin, suverenliyimizin, istiqlaliyyətimizin rəmzi olan bayrağımızın dalğalanması isə bizdə təkcə sonsuz iftixar hissi yaratmır. Bu həm də, harada üzməsindən asılı olmayaraq, gəmilərimizin müstəqil Azərbaycanımızın bir parçası olduğuna işarədir. Əminəm ki, bundan sonra da müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaq, yük daşınmasında, Xəzərdə neft və qaz istehsalında yüksək dəniz nəqliyyatı xidmətləri göstərilməsində çiyninizə düşən vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Bu gün qəlbi Vətən sevgisi ilə döyünən hər bir azərbaycanlının ən böyük arzusu Dövlət bayrağımızın Azərbaycanın işğal altında olan torpaqlarında dalğalandığını görməkdir. Möhtərəm Prezidentimizin böyük məharətlə həyata keçirdiyi uğurlu siyasət, regionun lider dövlətinə çevrilən ölkəmizin bütün dünyanı heyran qoyan iqtisadi tərəqqisi, gündən-günə möhkəmlənən ordumuzun torpaqlarımızı hər an işğaldan azad etmək qüdrətində olması bu ülvi arzumuzun da gerçəkləşəcəyinə bizdə qəti əminlik yaradır.

Bayramlarınız mübarək olsun!

***Rauf Vəliyev,***
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri*

# BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU XƏTTİNİN AÇILMASI AZƏRBAYCAN PREZİDENTİNİN STRATEJİ TƏŞƏBBÜSÜNÜN BƏHRƏSİDİR

***Azərbaycan müəllifi olduğu daha bir möhtəşəm beynəlxalq iqtisadi layihənin həyata keçməsinə nail oldu. Azərbaycan Prezidenti İlham Əliyevin strateji təşəbbüsünün bəhrəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 10 il müddətində çəkilməsi heç də təsadüfi xarakter daşımır. Maneələrə baxmayaraq Prezidentin siyasi iradəsi hər şeyə qalib gəldi. On il əvvəl bu layihənin əsası qoyulanda Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının neftdən asılılığının qarşısını almaq haqqında düşünürdü. Bu gün dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bir çox ölkələrin iqtisadiyyatına mənfi təsir göstərib. Lakin Azərbaycan beynəlxalq əhəmiyyətli iqtisadi layihələrlə qeyri-neft sektorunu inkişaf etdirərək davamlı inkişafını təmin edib. Bununla yanaşı, Azərbaycan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin də formalaşmasında əhəmiyyətli rol oynayır ki, bu da ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı ilə yanaşı, siyasi təminat da verir.***









Bəs Bakı-Tbilisi-Qars dəmir yolu Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin davamı ola bilərmi? Azərbaycan üçün bu nə dərəcədə vacibdir? Bu sualları cavablandırmaq üçün bəzi məqamlara diqqət yetirmək lazımdır.

Əvvəla qeyd edək ki, əgər Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əsas hissəsi Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttidirsə onda ehtimal etmək olar ki, Azərbaycan ərazisindən keçən bu dəmir yolu xətti ilə hərəkət edən qatarları Bakı-Tbilisi-Qars istiqamətinə də yönəltmək olar. Belə ki, dəhlizin Qərb marşrutu üzrə Hindistanın Mumbai limanından gəmi ilə çıxan yüklər Bəndər-Abbas limanına çatdırılırdı. Buradan qatar və yaxud da avtomobillə yüklər Xəzər dənizinin İran sahilindəki Ənzəli limanına gətirilirdi. Ənzəli limanında isə bir də gəmilərə yüklənərək Xəzər dənizi ilə Rusiyanın Həştərxan limanına daşınırdı. Bu limanda da yüklər boşaldılır və qatara yüklənərək təyinatı üzrə həm Şimali, həm Qərbi, həm də Şərqi Avropa ölkələrinə aparılırdı.

Azərbaycan bu layihəyə qoşulduqdan sonra isə Prezident İlham Əliyevin irəli sürdüyü təklif daha səmərəli və cəlbedici oldu. Bu səmərəlilik ondan ibarətdir ki, yüklərin daşınması xərci azalır və çatdırılması vaxtı qısalır. Yəni, yüklər gəmi ilə Hindistandan Mumbai limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatara yüklənir və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülür və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Avropa ölkələrinə çatdırılır. Göründüyü kimi, yüklər Xəzər sahilində İran və Rusiyanın limanlarında təkrar boşaldılıb-yüklənmir. Bu variantda yüklər təkrar gömrük rəsmiləşdirilməsindən də azad olur. Bildiyimiz kimi, Azərbaycan ilə Rusiyanın dəmir yolları arasında hələ SSRİ dövründən əlaqə mövcuddur ki, bu da əlavə xərc çəkib dəmir yolu inşa etmək ehtiyacını yaratmır.

Ötən ilin avqustunda Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Həsən Ruhaninin Bakıda keçirdikləri üçtərəfli görüş zamanı Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi məsələsinə də toxunulub və tərəflər işlərin tezliklə yekunlaşdırılması haqqında razılıq əldə ediblər.

Tehranda İran, Azərbaycan və Rusiya prezidentlərinin üçtərəfli görüşündə də bu məsələnin müzakirə ediləcəyi şübhə doğurmurdu. 2015-ci ilin dekabrında Prezident İlham Əliyev Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən yeni avtomobil yolları salınmağa başlanıb və dəmir yollarında əsaslı təmir işləri həyata keçirilib.

Qeyd etmək lazımdır ki, Azərbaycan üzərinə düşən öhdəliyi artıq yerinə yetirib. Azərbaycanın və İranın dəmir yollarını birləşdirəcək Astara (Azərbaycan)-Astara (İran) 8,7 kilometrlik dəmir yolu körpüsü inşa edilib və istismara verilib. Ümumiyyətlə, Azərbaycan ərazisindən keçən 511 kilometr dəmir yolu tam hazır vəziyyətdədir.

İranda isə Qəzvin-Rəşt dəmir yolu xəttinin tikintisi sürətlə davam edir. Yol üzrə 22 tunel və 15 xüsusi körpünün inşası nəzərdə tutulub. Tunellər artıq hazırdır, 9 körpünün isə əsası qoyulub. Bu yolun 2018-ci ildə istismara veriləcəyi gözlənilir. Yolun Rəşt-Astara hissəsində də işlər davam edir və artıq tunellər və körpülər tikilib başa çatdırılıb. İranın Azərbaycandakı keçmiş səfiri Möhsün Pakayinin sözlərinə görə, 400 kilometrlik Qəzvin-Rəşt-Astara dəmir yolunun Rəşt-Astara hissəsinə əlavə investisiya lazımdır. Çexiya və Macarıstan bu layihəyə investisiya qoymağa hazırdır. Oktyabrın 27-də Azərbaycanda səfərdə olan İranın iqtisadiyyat və maliyyə naziri Məsud Kərbasian keçirdiyi görüşlərdən sonra rəsmi Bakının da Rəşt-Astara dəmir yolunun çəkilişinə investisiya yatıracağını bildirib.

Artıq bu marşrut İran, Hindistan, Rusiya və Azərbaycanla yanaşı, Körfəz və Orta Asiya dövlətlərinin, həmçinin Çinin də marağına səbəb olub.

Nəzərə çatdıraq ki, Çin də bu marşrutla maraqlanıb və iqtisadi-texniki əsaslandırmadan sonra investisiya yatıracağına qərar verəcək. Çinin yaxın gələcəkdə mallarını məhz sözügedən dəhlizin Qərb marşrutu ilə dünya bazarına çıxaracağı şübhə doğurmur ki, bunun da önəmli səbəbi var. Məsələ ondan ibarətdir ki, Çinin gəmiləri Malayziyanın Malay yarımadası ilə İndoneziyanın Sumatra adası arasındakı Malakka boğazından keçərək dünya okeanına çıxır. Hind okeanı ilə Sakit okeanı birləşdirən bu boğaz iqtisadi baxımdan Cənub-Şərqi Asiya ölkələri üçün olduqca əhəmiyyətlidir. Hər il Malakka boğazından bu regionun müxtəlif ölkələrinə məxsus 50 mindən çox gəmi keçir. Lakin burada məskunlaşmış dəniz quldurları gəmilərə hücum edərək onları qarət edirlər. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünyanın müxtəlif regionlarında baş verən qanlı münaqişələr dəniz quldurlarının sayını artırmışdı və 2006-cı ildən başlayaraq Malakka boğazından keçən gəmilərin qarət olunması halları çoxalmışdı. Dəniz quldurları gəmiləri qarət etməklə yanaşı, heyət üzvlərini də girov götürərək yüksək məbləğdə pul tələb edirlər. Onu da nəzərə çatdırmaq lazımdır ki, yay aylarında Sumatra adasında baş verən meşə yanğınları nəticəsində boğazın üzəri sıx dumana bürünür və 200 metr irəlini görmək olmur. Belə vəziyyət həm qəzalara səbəb olur, həm də dəniz quldurlarını təqib etməyə imkan vermir. Bu problem Çini ciddi düşündürür. Deməli, Çinin Rəşt-Astara dəmir yoluna investisiya yatıracağı zərurətdir.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizindən kənar daşınan yüklər Hindistandan çıxaraq 4 dənizdən keçib Almaniyaya çatdırılır. Mumbai limanından çıxan yüklü gəmilər Ərəbistan dənizinə, Qırmızı dənizə, Aralıq dənizinə, Atlantik okeanına, Şimal dənizindəki Almaniya limanlarına daxil olur. Bundan başqa, Süveyş kanalının ötürmə qabiliyyəti zəif olduğundan gəmilər bəzən həftələrlə növbə gözləməli olurlar. Dənizlərdəki fırtınaları, ərazi sularından keçmək üçün ödənilən tranzit haqlarını və gömrük terminallarında yubanmaları nəzərə alsaq, bu yolun uzun, bahalı, üzücü və təhlükəli olduğunu görərik. Hindistandan Finlandiyaya qədər uzunluğu 7200 kilometr olan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi ilə yüklərin daşınma müddəti 2 dəfədən çox azalır. Mütəxəssislərin fikrincə, dəhliz Süveyş kanalından fərqli olaraq yolu 800 kilometr azaldır ki, bu da müqayisədə yüklərin 20 gün tez çatdırılması deməkdir. Bütün bunlar isə hər 15 ton yükün daşınmasında 2500 dollar vəsaitə qənaət edilməsinə gətirib çıxarır.

Daşınan yüklərə gəldikdə, qeyd etmək lazımdır ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin iştirakçısı olan hər bir dövlətin ixrac və idxal potensialı var. Dünya Ticarət Təşkilatının hesabatına görə, Hindistanın xarici ticarət dövriyyəsi 1 trilyon dollara yaxınlaşıb. Hindistan nefti, sənaye avadanlıqlarını, müxtəlif kimyəvi maddələri, dəmiri, poladı və başqa malları idxal edir. İxraca gəldikdə isə, qeyd etmək lazımdır ki, dünya bazarına çıxarılan çayın 13 faizini Hindistan ixrac edir. Dünyada qəhvə ixracına görə bu ölkə 6-cı yerdədir. Bunlardan başqa, neft-kimya məhsulları, dərman preparatları, maşınqayırma və nəqliyyat avadanlıqları, yüngül sənaye və kənd təsərrüfatı məhsulları da Hindistanın ixrac potensialına daxildir.

İran ilə Qərb dövlətləri arasında nüvə proqramına dair əldə edilən razılaşmanın nəticəsində sanksiyaların aradan qaldırılması bu dövlətin idxal və ixrac imkanlarını artırıb. Hər il İran Rusiyadan 1,5 milyon tondan çox buğda və digər dənli bitkilər, müxtəlif növ filizlər, taxta-şalban, avadanlıq idxal edir. Eyni zamanda, İran Rusiyaya meyvə-tərəvəz, kənd təsərrüfatı malları ixrac edir. 2014-cü ildə İranla Rusiya arasında ticarət dövriyyəsi 5 faiz artaraq 1,68 milyard dollara çatıb. Rusiya İrana 2014-2015-ci illərdə buğda ixracını iki dəfə artıraraq 2,8 milyon tona çatdırıb. Bütün bu yükdaşımalar isə Azərbaycan ərazisindən həyata keçiriləcək. Azərbaycana çatdırılan yükləri isə təyinatına uyğun olaraq müxtəlif istiqamətlərlə yola salmaq olar. Qərbi Avropaya gedən yüklər Rusiya ərazisindən, Şərqi Avropaya gedən yüklər isə Türkiyə ərazisindən, yəni, Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə etməklə yola salına bilər. Göründüyü kimi, Prezident İlham Əliyevin Bakı-Tbilisi-Qars layihəsinin icrası zamanı Azərbaycanı Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinə cəlb etməsi və Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilişinə diqqət ayırması strateji düşüncənin məhsuludur və ölkəmizin iqtisadi inkişafına yönəldilmiş addımdır.

Bu gün dünya bazarında neftin qiymətinin düşməsi iqtisadiyyatın şaxələndirilməsini və qeyri-neft sektorunun inkişaf etdirilməsini tələb edir. Prezident İlham Əliyevin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinə xüsusi diqqət ayırmasının əsasında dayanan amil ondan ibarətdir ki, Azərbaycan logistika və tranzit mərkəzə çevrilsin. Bu amil dövlət büdcəsinə əlavə vəsait gəlməsi ilə yanaşı, iş adamlarının fəaliyyətini stimullaşdıracaq, ölkənin ixrac potensialını artıracaq. Beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşmasında Azərbaycanın əhəmiyyətli rol oynaması onun qlobal iqtisadiyyata daha səmərəli inteqrasiyasına, qeyri-neft sektorunun inkişafına, modernləşməyə, iqtisadi islahatların sürətlənməsinə də impuls verəcək. Bakı-Tbilisi-Qars xəttinin və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin Qərb marşrutunun işə düşməsi nəinki region ölkələrinin iqtisadi inkişafına təkən verəcək, eyni zamanda, həmin ölkələr siyasi sabitlik üçün də zəmanət əldə etmiş olacaqlar.

***Rabil Kətanov***

---

*Sənsiz kədər - qaçılmaz,*
*Göz, sevinclə barışmaz,*
*Göz, sevincə alışmaz.*
*Sənsiz, bəxtim elə bil*
*Açılmaz düyün idi.*
*Nə həyatım bir həyat,*
*Nə də günüm gün idi.*

# DALĞALAN, TORPAĞIMIZA, TARİXİMİZƏ, DÖVLƏTİMİZƏ SONSUZ SEVGİMİZDƏN YARANAN AZƏRBAYCAN BAYRAĞI!

***Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.***

***Heydər ƏLİYEV,***
***Ümummilli Lider***

***Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Dalğalan, bayrağım mənim, dalğalan! Bu günüm, sabahım, dalğalan! Dalğalan ki, zirvələrdə dalğalanmağın üçün canından keçənlərin ruhu şad olsun. Azərbaycan boyda sevgimizdən güc alıb, daha əzəmətlə dalğalan. Dalğalan ki, sən də Azərbaycanımızın qüdrətinə qüdrət, şöhrətinə şöhrət qata biləsən.

Dalğalan, fərəhim mənim!

Gerbimiz və himnimiz kimi, sən də dövlətimizin müstəqilliyini təcəssüm etdirirsən. Kimliyimizi dünyaya bəyan edirsən. Vətən boyda sevgimizlə önündə diz çökdükcə, sən daha uca zirvələrdə dalğalan. Daha uca zirvələrdə dalğalan ki, kor olmuş düşmənlərimiz də görsün və dərk etsin müstəqil Azərbaycanımızın ərazi toxunulmazlığını. Daha uca zirvələrdə dalğalan ki, Allahın sevgisindən də kənarda qalmayasan...

Nə qədər əziz olduğundan xəbərsizsən bəlkə? Vətən adı çəkiləndə səcdəsində əyildiyimiz qədər əziz və müqəddəssən, Azərbaycan bayrağı!

Vətəni qorumağa gedəndə sənin önündə diz çöküb, and içir əsgər oğullarımız. Fəaliyyətə başlayanda sənin önündə diz çöküb, and içir xalqın seçdiyi rəhbər.

Sən bizim torpağımıza, tariximizə, dövlətimizə sonsuz sevgimizdən yaranmısan. Bütün dünyaya azadlıq eşqimizi, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadəqətimizi nümayiş etdirirsən.

Səni - göylərin sonsuzluğuna ucalan, müstəqilliyimizi və milli mənsubiyyətimizi ifadə edən bayrağımızı xalqımız ilk dəfə başı üzərinə 99 il öncə qaldırıb. 1920-ci ilin 28 aprelində respublikamızın bolşeviklər tərəfindən işğalından sonra isə Azərbaycan Parlamentinin binası üzərindən endirilən ay-ulduzlu üçrəngli bayrağımızın əvəzinə "qırmızılar" bizə oraq-çəkicli qondarma bayrağı dövlət atributu kimi sırımağa çalışdılar. Ulu Öndər Naxçıvan Respublikasına rəhbərlik etdiyi dövrdə bir-birinin ardınca xalqda özünüdərki gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən mühüm tədbirlər həyata keçirdi. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, hələ sovet hakimiyyəti dağılmamış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarı ilə ay-ulduzlu üçrəngli bayrağımız rəsmi olaraq Naxçıvan Ali Sovetinin binası üzərində ucaldıldı. 1991-ci il oktyabrın 18-də isə ölkə parlamenti Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi. Həmin gün ay-ulduzlu üçrəngli bayrağımız 70 il məhkum edildiyi qaranlıqlardan qurtularaq birdəfəlik işığa çıxdı və Dövlət Bayrağı statusunda yenidən xalqımızın başı üzərində dalğalandı.



Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalaq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında üçrəngli bayraq dövlət rəmzi kimi təsbit edilmişdir. Əsas Qanunun 23-cü maddəsinin II bəndində göstərilir: "Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".

Mavi rəng türklüyü, qırmızı rəng müasirliyi, yaşıl rəng isə dinimizə bağlılığı ifadə edir. Bayrağın üzərindəki ağ rəngli ay nişanı türkçülüyün, səkkizguşəli ulduz isə "Azərbaycan" sözünün əski əlifbada səkkiz hərflə yazılışının göstəricisidir. Bəzi mənbələrə görə isə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət prinsipləri müəyyənləşdirilərkən səkkiz atributa əsaslanıb. Bunlar türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdi. Səkkizguşəli ulduzun hər bucağı bu prinsiplərin biri rəmzindədir.

Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində isə qeyd olunur ki, "Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir."

Bütün sahələrdə Ulu Öndərin siyasətini uğurla davam etdirən layiqli varisi cənab İlham Əliyevin milli dövlət atributlarına münasibətində də eyni sevginin şahidi oluruq. Məhz Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə 9 noyabr - Dövlət Bayrağı Günü təsis edilmiş, Bakıda Dövlət Bayrağı Meydanı, həmin meydanda Dövlət Bayrağı Muzeyi yaradılmışdır. Bütün bunlar möhtərəm Prezidentimizin müstəqilliyimizə, dövlətimizin atributlarına verdiyi dəyərin bariz nümunəsi olmaqla yanaşı, həm də milli bayrağa sevgimizin dövlət tərəfindən rəsmiləşdirilməsi deməkdir.

Qürurumuz, mənəvi sərvətimiz, toxunulmaz xəzinəmiz olan üçrəngli bayrağımızın paytaxtımızın ən möhtəşəm guşəsində və analoqu olmayan hündürlükdə dalğalanması həm də xalqımızda milli özünüdərk ideallarını, həmrəylik duyğularını artırır. Dövlət Bayrağı Meydanı dövlətçiliyimizin şərəfli tarixi, onun hansı təməl prinsiplərinə, idealoji sütunlara söykəndiyini nümayiş etdirməklə yanaşı, xalqımızın öz müstəqil dövlətini qorumaq, inkişaf etdirmək, əbədi yaşatmaq əzmini möhkəmləndirir.

Sevinirik ki, gəmilərimizin dor ağacında da üçrəngli bayrağımız dalğalanır. Sorağı dünyanın müxtəlif dənizlərindən gələn gəmilərimizin dor ağacında müstəqilliyimizin, suverenliyimizin, istiqlaliyyətimizin rəmzi olan bayrağımızın dalğalandığını görmək nə xoş! Bu həm də harada üzmələrindən asılı olmayaraq, gəmilərimizin müstəqil Azərbaycanımızın bir parçası olduğunun təsdiqidir.

Möhtərəm Prezidentimizin böyük məharətlə həyata keçirdiyi uğurlu siyasət, Azərbaycanın dünyanı heyrətləndirən, düşmənlərinin belə etiraf etdiyi iqtisadi tərəqqisi, ordumuzun Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilməsi isə yaxın gələcəkdə erməni işğalı altında olan bütün torpaqlarımızda da Dövlət Bayrağımızın dalğalanacağına hər birimizdə qəti əminlik yaradır.

Dalğalan, Bayrağım mənim! Dalğalan, müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edən Bayrağım mənim! Dalğalan, sevincim mənim! Dalğalan, qürurum mənim! Dalğalan!!!

***Rasif TAHİROV***

# RUSİYA BİRLƏŞMİŞ GƏMİQAYIRMA KORPORASİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB





***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər heyəti ilə Rusiya Federasiyasının Birləşmiş Gəmiqayırma Korporasiyasının nümayəndələri arasında işgüzar görüş keçirilib. Görüş zamanı qonaqlar təmsil etdikləri şirkət haqqında ətraflı məlumat veriblər.***

Bildirilib ki, Korporasiyanın nəzdində fəaliyyət göstərən və Rusiyanın ən qədim gəmiqayırma müəssisələrindən olan "Krasnoye Sormovo" zavodunun əsası 1849-cu ildə qoyulub və bu müddət ərzində dünyada analoqu olmayan gəmilər tikməklə Rusiya hüdudlarından kənarda belə şöhrət qazana bilib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və "Krasnoye Sormovo" zavodunun da daxil olduğu Birləşmiş Gəmiqayırma Korporasiyasının (BGK) marketinq və satış departamentinin direktoru Dmitriy Pryaxin əməkdaşlıq haqqında fikir mübadiləsi aparıblar. İkitərəfli əlaqələrin perspektivləri müzakirə olunub.

Tədbirdə "Krasnoye Sormovo" zavodunda reallaşdırılan son layihələrin təqdimatı da olub. Rusiya çaylarında kruiz sahəsində istimar ediləcək yeni sərnişin gəmisi haqqında ətraflı məlumat verilib.

BGK-nin nümayəndələri Xəzərdə istismar ediləcək sərnişin gəmiləri haqqında da danışıblar. Gəmiçiliyin sədri bildirib ki, hazırda Azərbaycan da bu sahədə məsələni hərtərəfli araşdırır.

Qeyd edək ki, Rusiyanın "Krasnoye Sormovo" zavodu ilə Azərbaycanın dərin tarixi əlaqələri mövcuddur. Belə ki, 1971-ci ildən Azərbaycan gəmiçiliyi üçün zavodda maye və quru yüklər daşıyan 17 gəmi inşa edilib.

Məlumat üçün bildirək ki, "Krasnoye Sormovo" zavodunda Rusiya Federasiyasının Hərbi Dəniz Qüvvələri üçün 300-ə yaxın sualtı, o cümlədən 26 atom gəmisi tikilib.

# GƏMİÇİLİYİN XARİCİ SULARDA AZƏRBAYCAN BAYRAĞI ALTINDA ÜZƏN GƏMİLƏRİ BARƏDƏ FİLM TƏQDİM OLUNUB

***Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Dövlət Bayrağı milli suverenliyin rəmzi kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs simvola çevrilib. Bu bayraq bizim milli-mənəvi dəyərlərə, ümumbəşəri ideallara sadiqliyimizi göstərir. Məhz, Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü bayramı ərəfəsində təqdim olunan "Uzaq səfərlərdə" adlı film də Xəzərdən kənarda, xarici sularda müqəddəs bayrağımızı qürurla daşıyan gəmilər və cəsarətli dənizçilərimizdən bəhs edir.***






Filmdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin xarici sularda üzən gəmilərinin fəaliyyət coğrafiyası haqqında ətraflı məlumat verilir. ... istismarı ilə məşğul olur. Hər iki şirkət dünyanın tanınmış təsnifat cəmiyyətlərindən olan Amerika Gəmiçilik Bürosunun (ABS) İSM-in tələblərinə uyğunluğu təsdiqləyən sertifikatına malikdir.

Donanmasının yenilənməsinə xüsusi diqqət yetirən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC xarici sularda üzən gəmilərinin sayını, onların üzmə coğrafiyasını artırmaqda davam edir. Buna bariz nümunə isə Qara dəniz, Azov dənizi, Aralıq dənizi hövzələrində yükdaşıma əməliyyatları zamanı istismar olunacaq "Professor Əziz Əliyev" tankerinin alınmasıdır.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdən kənarda daha da möhkəmlənmək məqsədini gerçəkləşdirdikcə,





Qeyd edək ki, donanmamızın xarici sulardakı fəaliyyətinə ara verildiyi vaxtlar da olub. Dənizçilərimiz düz beş il müstəqil Azərbaycanın üçrəngli bayrağının uzaq sahillərdə yenidən dalğalanacağının intizarını çəkiblər. Onların intizarına "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yarandıqdan sonra bidəfəlik son qoyulub. Belə ki, 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən Gəmiçilik "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə Xəzərdən kənarda fəaliyyətini bərpa edib. Artıq üçrəngli bayrağımızın qürurla dalğalandığı gəmilər Aralıq, Qara dənizlərdə yerləşən onlarla limana yan alır, vacib beynəlxalq su nəqliyyat arteriyaları ilə yüklər daşıyır. Sözsüz ki, ölkəmizə xarici valyutanın gətirilməsində və ümumilikdə gəmiçiliyin inkişafında bu amil mühüm əhəmiyyət kəsb edir.

Gəmilərimizin xarici sularda daha səmərəli istismarını "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Türkiyədə təsis etdiyi "Caspdry" və "Casptankers" adlı iki yeni şirkət həyata keçirir. "Caspdry" quru, "Casptankers" isə maye yüklər daşıyan gəmilərin milli donanmamızın səfər coğrafiyası da genişlənəcək. Həm yad sularda bayrağımızı qürurla dalğalandıran gəmilərimizin, həm də gəmilərin yan aldıqları limanların sayı artacaq. Ən əsası, harda üzməsindən asılı olmayaraq dor ağacında üçrəngli bayrağımız dalğalanan gəmilərimiz bundan sonra da yurdumuzun bir parçası sayılacaq.

Filmi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəsmi "youtube" kanalından (Azerbaijan Caspian Shipping Company ACSC) izləyə bilərsiniz.

# XƏZƏRYANI ÖLKƏLƏRİN İŞTİRAKI İLƏ "XƏZƏR-2017" BEYNƏLXALQ TƏLİMİ UĞURLA BAŞA ÇATIB





***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Xəzəryanı ölkələrin iştirakı ilə Bakının Qaradağ rayonu ərazisində, Xəzər dənizinin cənub-qərb hissəsində "Xəzər-2017" beynəlxalq təlimi keçirilib.***

Təlimdə Azərbaycan FHN-in, Rusiyanın, İranın, Qazaxıstanın, Türkmənistanın müvafiq qurumlarının canlı qüvvə və texnikası iştirak edib. Bundan başqa, Azərbaycanın digər müvafiq güc qurumlarının - Xüsusi Dövlət Mühafizə, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd xidmətlərinin, Müdafiə, Daxili İşlər, Səhiyyə nazirliklərinin, Dövlət Dəniz Administrasiyasının, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin, Dövlət Neft Şirkətinin və BP şirkətinin şəxsi heyətləri, xüsusi texnika və avadanlığı da cəlb edilib.

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin və Xəzəryanı dövlətlərin xilasetmə xidmətlərinin fövqəladə hadisələr zamanı birgə fəaliyyəti" mövzusunda təşkil olunan təlimi fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, İranın daxili işlər nazirinin müavini, Böhranlı Vəziyyətlərin İdarə Edilməsi Təşkilatının sədri İsmayıl Nəccar, Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə nazirinin müavini Vladlen Aksenov, Qazaxıstan Daxili İşlər Nazirliyi nəzdində Fövqəladə Hallar üzrə Komitənin sədr müavini Marat Kuldikov, Türkmənistan Müdafiə Nazirliyinin Xilasetmə İşinin Təşkili Baş İdarəsinin rəisi Pənah İlyasov, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin təmsilçiləri, Azərbaycan Silahlı Qüvvələrinin zabitləri, təlimdə iştirak edən müvafiq qurumların rəhbər heyəti izləyiblər.

Əvvəlcə təlimdə iştirak edən qurumların texnikalarına və avadanlığına baxış olub.

Sonra təlimlə bağlı yaradılan əməliyyat qərargahında müşavirə keçirilib.

Müşavirədə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov bildirib ki, Bakıda ilk dəfə olaraq Azərbaycanın ev sahibliyi və Rusiya, İran, Qazaxıstan, Türkmənistanın iştirakı ilə "Xəzər-2017" beynəlxalq təlimi keçirilir: "Fövqəladə hadisələrə cavab verilməsi üzrə Xəzəryanı ölkələrin xilasetmə xidmətlərinin birgə iştirakı ilə təlim mühüm hadisədir. Bu gün beş ölkə arasında əməkdaşlığın yeni formatı yaranır. Əsrlərboyu qonşu olan xalqlarımızı ortaq coğrafiya və tarix birləşdirir. Azərbaycanı Rusiya, İran, Qazaxıstan və Türkmənistanla sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf edib, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Son vaxtlar yaşadığımız regionda təbii və texnogen risklər artmaqdadır. Zəlzələ, daşqınlar, vulkan püskürmələri və bu kimi təbii fəlakətlərin birbaşa insan fəaliyyətindən qaynaqlanmadığını bilirik. İqlim dəyişikliyi artıq müxtəlif ölkələrdə ciddi nəticələrə səbəb olur, vaxt ötdükcə daha təhlükəli hal almağa başlayır. Bizi birləşdirən Xəzər dənizi ümumi sərvətimizdir. Xəzər dənizini sülh, dostluq, əməkdaşlıq dənizi hesab edirik. Azərbaycan Xəzəryanı dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanaraq ikitərəfli münasibətlərin inkişafına diqqət yetirir. Bu ölkələr arasında sıx dostluq münasibətləri və çoxvektorlu əməkdaşlıq bizim regionda sabitlik, firavanlıq və təhlükəsizliyin rəhnidir. Odur ki, Xəzər dənizinin ekosisteminin qorunması bütün Xəzəryanı ölkələrin ümumi işidir".



Kəmaləddin Heydərov qeyd edib ki, bu baxımdan Azərbaycandakı təlim fəlakət risklərinin effektiv idarə edilməsi, mövcud istiqamətlərdə fəaliyyətin gücləndirilməsi, risklərə gətirib çıxaran halların birgə aradan qaldırılmasına mühüm zəmin yaradacaq.



Sonra təlimin rəhbəri, fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyev beynəlxalq təlimə cəlb olunan qüvvə və texnikalar barədə məlumat verib. Bildirib ki, təlimə 1100 şəxsi heyət, 208 müxtəlif təyinatlı texnika, 2 təyyarə, 5 helikopter, 10 sürətli kater, 8 gəmi, 6 xüsusi təlim görmüş it cəlb edilib.

Təlim planına uyğun olaraq birinci mərhələdə fövqəladə hadisələrin başvermə təhlükəsi yarandıqda və ya baş verdikdə Rusiya, İran, Azərbaycan, Qazaxıstan və Türkmənistanın xilasetmə xidmətlərinin qüvvələrindən beynəlxalq xilasetmə birləşmələrinin yaradılması, informasiya mübadiləsinin və qarşılıqlı fəaliyyətin təşkili, dənizdə yerləşən neftçıxarma platformalarında və neftdaşıyan gəmilərdə baş verən qəzalar zamanı xəbərdarlığın edilməsi, axtarış və qəza xilasetmə işlərinin həyata keçirilməsi, ikinci mərhələdə isə neftlə çirklənmiş ərazilərin təmizlənməsi, qurğuların sualtı hissələrinə baxış keçirilməsi və obyektlərin təhvil verilməsi əməliyyatları uğurla yerinə yetirilib.

# ERMƏNİSTAN BÖYÜK YOLLARIN KƏSİŞMƏSİNDƏKİ HÜNDÜR DAŞIN ÜZƏRİNDƏ OTURAN MİN YAŞLI KOR BAYQUŞA ÇEVRİLİR

***Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun istismara verilməsi Ermənistanda, sözün həqiqi mənasında, vahimə yaradıb.***

"armtimes.com" saytında dərc olunan məqalədə bu barədə ətraflı söhbət açılır. Müəllif Ayk Qevorkiyan yazır ki, hələ 10 il əvvəl BTQ-nin əsası qoyulanda Yerevanda İqtisad İnstitutunun tələbələri qarşısında çıxış edən Robert Köçəryan bəyan etmişdi ki, ictimaiyyətin Ermənistanın iqtisadi blokadaya düşməsi haqqındakı narahatlığı əsassızdır. Çünki BTQ-nin iqtisadi səmərəsi yoxdur və bu dəmir yolu tikilib başa çatdırılmayacaq. Lakin R.Köçəryanın fikri özünü doğrultmadı, BTQ-nin əsası qoyuldu və tikinti işləri başladı. Bir müddət sonra Yerevan Dövlət Universitetində çıxış edən R.Köçəryan yenə də jurnalistlərin bu barədə sualına cavab vermək məcburiyyətində qaldı. Jurnalistlər R.Köçəryana belə bir sual verdilər: "Bəs siz deyirdiniz BTQ tikilməyəcək. Lakin layihənin əsası qoyulub və tikinti işləri başlayıb". R.Köçəryan cavab verdi ki, bəli, tikinti işləri başlayıb, amma Yerevanın Qərbdəki müttəfiqləri bu layihəni dəstəkləmir və tikintinin başa çatacağı sual altındadır. Doğurdan da həmin vaxt bir neçə ermənipərəst ABŞ konqresmeni erməni lobbisinin səyləri ilə bəyanatla çıxış edərək BTQ-nin tikintisinin səmərəsiz olduğunu bildirdilər və ABŞ hökumətini bu layihəni dəstəkləməməyə çağırdılar. O dövrdə rəsmi Yerevan düşünürdü ki, ABŞ konqresmenlərinin bəyanatı tikintinin qarşısını almaq üçün yetərlidir. Lakin zaman göstərdi ki, yetərli deyil. Sonra Ermənistan prezidenti Serj Sarkisyan da bu layihəyə mane olmağa çalışdı. S.Sarkisyan 2008-ci ildə İran-Ermənistan dəmir yolunun çəkilməsi ideyasini irəli sürdü və rəsmi Tehran ilə müzakirələr başladı. İqtisadi-texniki əsaslandırmadan sonra məlum oldu ki, S.Sarkisyanın da fikirləri sabun köpüyü kimi havadan asılı qaldı. Belə ki, Ermənistan prezidentinin təklifinə İran ciddi yanaşmadı və heç bir dövlət və beynəlxalq maliyyə təşkilatı İran-Ermənistan dəmir yolunun çəkilişinə sərmayə qoymaq istəmədi.

Azərbaycan, Gürcüstan və Türkiyə öz səyləri ilə BTQ-ni tikib başa çatdırdılar. Qlobal xarakter daşıyan BTQ istismara verildi. ABŞ və Avropa İttifaqı BTQ-nin istismara verilməsini alqışladılar.

Bəs Ermənistan hansı səbəbə BTQ-nin həyata keçməsinə mane olmağa çalışırdı? Məsələnin mahiyyəti ondan ibarətdir ki, Tbilisi-Gümrü-Qars (TGQ) dəmir yolu xətti mövcuddur. Ermənistan bu xətti işə salmaqla blokadadan çıxmaq istəyirdi. Lakin rəsmi Yerevanın işğalçılıq siyasəti və qonşu dövlətlərə qarşı heç bir əsası olmadan ərazi iddiaları irəli sürməsi TGQ-nin fəaliyyətini heçə endirib. Bu yol artıq 25 ildir ki, dayanıb. Digər tərəfdən, Ermənistanın Rusiya ilə birbaşa sərhədi yoxdur. Gürcüstan vasitəsilə Rusiya ilə çıxış əldə etmək istəyirdi ki, bu da alınmadı. Gürcüstan Abxaziya bölgəsindən yolun çəkilməsinə icazə verməz. Çünki Abxaziyadakı separatçılar Gürcüstanın ərazi bütövlüyünü pozub. Beləliklə, xaricə nəqliyyat çıxışı axtaran Ermənistan dəyəri 1,5 milyard dollar olan İran-Ermənistan avtomobil yolunu çəkməyə başladı ki, bu da həm səmərəli deyil, həm də nə vaxt başa çatacağı bilinmir. İqtisadi böhran yaşayan Ermənistan maliyyə çətinliyi ucbatından tikinti işlərini dayandırıb. İran isə əsas prioriteti İran-Ermənistan avtomobil yoluna yox, Rəşt-Astara dəmir yoluna yönəldib.

Göründüyü kimi, Azərbaycan Prezidentinin strateji təşəbbüsünün reallığa çevrilməsi Ermənistanı, necə deyərlər, peşman edib. Prezident İlham Əliyevin hələ on il əvvəl planlaşdırdığı layihə bu gün həyata keçdi və bu, yalnız regional xarakterli iqtisadi layihə deyil. BTQ, eyni zamanda, Azərbaycanın uzunmüddətli siyasi zəmanətidir. Ermənistanın isə regionda həyata keçirilən bütün beynəlxalq layihələrdən kənarda qalması onun müstəqil siyasət aparmadığını göstərir. Ermənistan özündə iradə tapıb havadarlarının deyil, öz milli maraqlarının qoruyucusu olsa bəlkə onda işğalçılığın və torpaq iddialarının erməni xalqına necə böyük zərbə vurduğunu anlayar.

A.Qevorkiyan məqaləsini yekunlaşdıraraq yazır ki, Ermənistan böyük yolların kəsişməsindəki hündür daşın üzərində oturan min yaşlı kor bayquşa çevrilir.

# ƏTRAF MÜHİTƏ ZƏRƏRİN VURULMAMASI ÜÇÜN ZƏRURİ QABAQLAYICI TƏDBİRLƏR GÖRÜLÜR

***Ətraf mühitin qorunması "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (AXDG) üçün əsas davamlı inkişaf meyarlarından biridir.***

AXDG gəmilərin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan neftli şlamların, işlənmiş yağların, digər maye və bərk tullantıların su mənbələrinə, qrunta və havaya ekoloji mənfi təsirlərinin minimuma endirilməsini daim diqqət mərkəzində saxlayır. Əməliyyatlar zamanı ətraf mühitə zərərin vurulmaması üçün mövcud imkanlar daxilində zəruri qabaqlayıcı tədbirlər görülür.

Cari ilin yanvar-sentyabr aylarının nəticələrinə görə, Cəmiyyətin həm sahil, həm də dəniz obyektlərində formalaşan 108175.9 ton çirkab məişət-təsərrüfat suyu, 3844.311 ton neftli döşəməaltı su, 63,214 ton yağlı əski, 40,66 ton sintetik propilen buraz kəndir qalığı, 0,92 ton istifadə müddəti bitmiş kimyəvi tərkibli məmulat bağlanmış müqavilələr əsasında səriştəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlara təhvil verilməklə ərazilərimizdən kənarlaşdırılıb.

Həmçinin, 82 ədəd yararsız akkumulyator, 419 ədəd nasaz avtomobil şini, 47,391 ton rezin tullantısı, 154 ədəd yanacaq, 477 ədəd yağ və 244 ədəd hava süzgəcləri, 1,083 ton toner-katric, 272,84 ton keramik qırıntı, 12 ton asbest qalığı, 47,06 ton işlənmiş boya qabı və boya tullantıları, 378,43 ton taxta tullantı, 45,0 ton tibbi tullantı, 123,742 ton şüşə qırığı, 192,745 ton sellüloz tullantısı, 180,318 ton tekstil parça qalığı, 231,564 ton polimer əsaslı və plastmas tullantı, 610,296 ton qida qalığı aidiyyəti üzrə təhvil verilib.

Qeyd edilən dövrdə Dənizkənarı Milli Park və Cəmiyyətin sahil fəaliyyət akvatoriyaları səthindən 0,19 ton neft-su qarışığı, habelə 38,48 ton müxtəlif ölçülü əşyalar yığılıb təhvil verilib.

# TALEYİNİ GƏMİÇİLİKLƏ BAĞLAMASINDAN HEÇ VAXT TƏƏSSÜF HİSSİ KEÇİRMƏYİB



***Bu münasibətlə Dəniz Nəqliyyatı Donanmasında rəhbər heyətin də iştirakı ilə görüş təşkil olunub. Görüşdə İqtisadiyyat və uçot xidmətinin rəisi - baş mühasib İltifat Babayevin gəmiçilik sahəsindəki fəaliyyətinə nəzər salınıb, xidmətlərindən danışılıb.***

İltifat Babayev taleyini Gəmiçiliklə bağlamasından heç vaxt təəssüf hissi keçirmədiyini, təqaüdə xoş təəssüratlarla çıxdığını deyib: "Fəaliyyətim müddətində çox gözəl anlar yaşamışam, dostlar qazanmışam. Bütün həmkarlarıma təşəkkür edirəm."

Çıxış edən həmkarları İltifat Babayevə cansağlığı və uzun ömür arzulayıblar.

Qeyd edək ki, İltifat Babyev 1954-cü ildə Bakıda anadan olub. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. Dənizçilik sahəsində əmək fəaliyyətinə 1973-cü ildə Xəzər Dəniz Yolları İdarəsində matros şagirdi kimi başlayıb. Daha sonralar elə həmin idarədə matros, akkumulyatorçu, mühasib, baş mühasibin müavini, baş mühasib vəzifələrində işləyib. Uzun illər Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyində baş mühasib olub. 2014-cü ildən isə Dəniz Nəqliyyatı Donanmasında İqtisadiyyat və uçot xidmətinin rəisi - baş mühasib vəzifələrini yerinə yetirib.

İltifat Babyev 2013-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə dəniz nəqliyyatı sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalına layiq görülüb.

# XƏZƏRİN HÜQUQİ STATUSU BARƏDƏ MÜQAVİLƏ GƏLƏN İL İMZALANA BİLƏR



***Xəzərin hüquqi statusu barədə müqavilə gələn il imzalana bilər.***

Bunu jurnalistlərə RF Prezidentinin Xəzər dənizi regionu ölkələri ilə humanitar və iqtisadi məsələlərə dair əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Ramazan Abdulatipov bildirib. O, qeyd edib ki, müqavilə Xəzəryanı ölkələrin dövlət başçılarının gələn ilin əvvəlində Astanada keçiriləcək sammitində imzalana bilər.

RF Prezidentinin xüsusi nümayəndəsi xatırladıb ki, Xəzərin statusunun müzakirəsi 20 ildir davam etsə də, bu barədə əsas sənəd hələ imzalanmayıb.

"Əgər Xəzərin hüquqi statusu ilə bağlı çoxdan gözlənilən konvensiya imzalanarsa, bu, regionda həm humanitar, həm də iqtisadi əməkdaşlığı aktivləşdirəcək", - deyə R.Abdulatipov bildirib. Onun sözlərinə görə, RF-nin bu regionda həyata keçirəcəyi bütün mümkün layihələrin mükəmməl auditinin aparılması vacibdir.

***Fəridə Abdullayeva***

# YENİ BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANININ TİKİNTİSİ SÜRƏTLƏ DAVAM EDİR

***Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi sürətlə davam edir.***

***Azərbaycan Respublikası Prezidentinin "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisi haqqında" 2007-ci il 18 oktyabr tarixli Sərəncamının icrası olaraq, Ələt qəsəbəsinin ərazisində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi həyata keçirilir.***

Azərbaycan Respublikasının Xəzər dənizi boyu 900 kilometrdən çox sərhəd xəttinin olmasına baxmayaraq, yeni limanın məhz Ələt qəsəbəsində inşası barədə qərar qəbul edilib. Sözsüz ki, bu təsadüfi deyildir. Ələt qəsəbəsi ölkə ərazisindən keçən mühüm beynəlxalq nəqliyyat dəhlizləri: Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin Azərbaycan seqmentləri olan avtomobil və dəmir yolu xətlərinin kəsişməsində yerləşir və yeni limanın inşası ilə buraya su magistrallarının da əlavə edilməsi, mahiyyət etibarilə bu ərazinin mühüm nəqliyyat qovşağına çevrilməsinə imkan verəcək və daşımalar üçün geniş logistik imkanlar yaradacaq. Məhz bu prizmadan yanaşaraq, yeni limanın Ələt qəsəbəsində inşasına qərar verilib.


















Yeni limanın inşası üçün 400 hektar torpaq sahəsi ayrılıb, Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 2010-cu il 3 noyabr tarixində yeni liman kompleksinin təməli qoyulub.

Dövlət başçının "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə" 2017-ci il 13 aprel tarixli Sərəncamına əsasən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin tikintisi üzrə layihənin davam etdirilməsi və başa çatdırılması üçün görüləcək işlərin sifarişçisi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi təyin edilib. Bu istiqamətdə Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlanma və tamamlama tarixləri göstərilməklə tədbirlər planı işlənib hazırlanıb və artıq onun yerinə yetirilməsinə başlanılıb.

Yeni liman kompleksinin Baş Planı və ümumi layihəsi beynəlxalq açıq tenderin qalibi Hollandiyanın "Royal Haskoning" şirkəti tərəfindən işlənib hazırlanıb və müvafiq qaydada təqdim edilib. İnşaat işləri liman ərazisinin iki hissəsində - quru və dəniz seqmentlərində aparılır.

Hollandiyanın "Van Oord Dredging and Marine Contractors" B.V. şirkəti tərəfindən liman akvatoriyasında aparılmış dibdərinləşdirmə işləri nəticəsində uzunluğu 7,5 kilometr, eni 160 metr, dərinliyi 7 metr və dönmə dairəsinin diametri 450 metr olan giriş kanalı inşa edilib. Bu, Xəzər dənizində üzən bütün növ gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasını təmin etmək imkanı verir. Kanalın eninin 160 metr olması gəmilərin yüksək məhsuldarlığını və iki gəminin eyni zamanda hərəkətini təmin edir.

Hollandiyanın "Royal Haskoning" şirkətinin Baş Planına əsasən limanın 3 fazalı inkişafı nəzərdə tutulur. Hazırda birinci fazada dinamik şəkildə işlər görülür. Perspektivdə yük axınlarının həcminin artacağı təqdirdə, onların aşırılmasını təmin edəcək yeni infrastrukturun yaradılması (layihənin 2-ci mərhələsinin tikintisi) üçün böyük vəsait sərf etmədən, layihənin 1-ci mərhələsi daxilində infrastrukturun təkmilləşdirilməsi yolu ilə onun yükaşırma imkanının artırılması dövlət investisiya xərclərində əhəmiyyətli dərəcədə qənaət olunması baxımından rasional qiymətləndirilib və bunun nəzərə alınması ilə layihənin birinci fazası üzrə Baş Plan təkmilləşdirilərək, müvafiq qaydada razılaşdırılıb və təsdiq edilib.

"HaskoningDHV UK" Ltd şirkəti tərəfindən yeni Baş Plana edilmiş dəyişikliklərin limanın fəaliyyəti üçün təhlükəsizlik və funksionallıq baxımından texniki təftişi aparılmış və liman əməliyyatlarının təhlükəsizlik və funksionallığı baxımından müsbət qiymətləndirilib.

Hazırda 1200-dən çox işçi qüvvəsinin, 300-ə yaxın texnikanın cəlb olunduğu Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində tikinti işləri sürətlə davam etdirilir.

İqtisadiyyat Nazirliyinin tikilən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin müdiriyyətinin direktoru Heydər Turabov bildirib ki, layihənin 1-ci fazası üzrə Ro-Ro tipli gəmilər üçün 2 körpü və 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı inşa olunacaq. Həmçinin xidməti donanma gəmiləri üçün körpünün və təmir bazasının, limanın əməliyyat binasının, yük sahələri və anbarların, sərhəd və gömrük xidməti məntəqələrinin, bütövlükdə təxminən 34 ədəd müxtəlif təyinatlı binaların tikintisinin həyata keçirilməsi, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi, kranların alınması, təchizatı və quraşdırılması nəzərdə tutulub.

O bildirib ki, Baş Plana əsasən, 1 ədəd Ro-Ro və 3 ədəd ümumi yük körpüsü əlavə olunmaqla, ümumi körpülərin sayı 8-dən 12 ədədə çatdırılıb, bunun nəticəsində layihənin birinci fazasının yükaşırma imkanı illik 10 milyon ton yükdən 15 milyon ton yükə və 50 000 TEU-dan 100 000 TEU konteynerə qədər artırılması təmin edilib.

Tikinti işlərinin sürətlə aparıldığı körpülər barədə məlumat verən H.Turabov qeyd edib ki, Bakı Limanının tikilməkdə olan birinci fazasının ərazisi 117 hektar təşkil edir. "İşlərin sürətlə görüldüyü 1 nömrəli yük körpüsünün uzunluğu 300 metrdir. Bu körpü vasitəsilə ağır həcmli yüklərin boşaldılması həyata keçiriləcək. Körpünün sol istiqamətində 1A körpüsü mövcuddur ki, onun da uzunluğu 145 metr təşkil edir və 1 gəminin yanalması nəzərdə tutulub. 1A körpüsünün yuxarı istiqamətində isə Ro-Ro-1 və Ro-Ro-2 körpülərində tikinti işləri aparılır. Körpülərin müvafiq uzunluğu 222 və 185 metrdir. Bu körpülərə Ro-Ro tipli gəmilər yan alacaq və təkərli texnikanın daşınması da bu körpülər vasitəsilə təmin ediləcək. İşlərin ən qızğın getdiyi ikinci körpünün uzunluğu isə 654 metrdir. Bu körpüyə 4 gəminin yanalması planlaşdırılıb. Körpüdə portal kranlar işləyəcək. Artıq kranların quraşdırılma işlərinə başlanılıb. Yükləmə-boşaltma əməliyyatlarının effektivliyinin yüksəldilməsi məqsədilə Almaniyanın "Ardelt" şirkətindən 6 ədəd yeni portal kran alınıb. Bu kranlara 2 ədəd 80 tonluq, 2 ədəd 40 tonluq Kondor tipli və 2 ədəd 32 tonluq "Sokol" tipli yeni kran aiddir. Tikinti işlərinin görüldüyü üçüncü körpünün uzunluğu 262 metrdir və 1 gəminin yanalması nəzərdə tutulub. Bu körpüdə 2 ədəd mövcud portal kranın modernləşdirilərək təchizatı və quraşdırılması nəzərdə tutulub".

H.Turabov, hazırda tikinti işlərinin yüksək sürətlə davam etdirildiyini və yeni liman kompleksinin bütün seqmentlərində inşaat işləri aparıldığını diqqətə çatdırıb. Davam edən tikinti fəaliyyəti torpaqtökmə, dibdərinləşdirmə, metal konstruksiya, infrastruktur (elektrik, rabitə, su, kanalizasiya, yanğınsöndürmə, drenaj xətləri), mülki inşaat işlərini əhatə edir.

Liman ərazisində quru infrastrukturu obyektlərinin tikintisinin və mülki inşaat işlərinin də həyata keçirildiyini diqqətə çatdırıb. Yüklərin saxlanılması üçün burada açıq yük sahələri və 2 növ örtülü anbar tikilir. Örtülü anbarlar metal konstruksiyalı binalar olacaq. Tikilən anbarların hər birinin ərazisi təxminən 1200 kvadratmetrdir.

Onun sözlərinə görə, yeni liman kompleksinin akvatoriya hissəsinə aid olan qurğuların tikintisinin 2017-ci ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Bura 7 ümumi yük körpüsü, 2 Ro-Ro körpüsü, xidməti donanma gəmiləri üçün körpünün inşası daxildir. Layihəyə əsasən, 2018-ci ilin birinci rübünün sonunadək olan dövrdə anbarlar, yardımçı binalar, digər əlaqəli infrastruktur obyektləri inşa olunacaq, onların mühəndis-kommunikasiya xətləri (elektrik, rabitə və sair daxil olmaqla) çəkiləcək. Bu dövrdə, həmçinin yardımçı sistemlərin (drenaj, siqnalizasiya, yanğınsöndürmə və yanğın xəbərdarlığı, İT, videomüşahidə, İSPS tələblərinə uyğun olaraq mühafizə sistemi və sair daxil olmaqla) quraşdırılmasının başa çatdırılması nəzərdə tutulub, bu istiqamətdə işlər görülür.

Yeni limanın inşası zamanı hədəfə alınan əsas məsələlərdən biri də müasir tələblərə cavab verən İT və təhlükəsizlik infrastrukturunun yaradılmasından ibarət olub.

H.Turabov bildirib ki, bu hədəfə nail olmaq məqsədilə, liman ərazisində əməliyyatların effektiv idarəolunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sisteminin və digər İT komponentlərinin tətbiqi, eləcə də Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin (İSPS) tələblərinə uyğun olaraq mühafizə sisteminin yaradılması nəzərdə tutulub.

Artıq qeyd etdiyimiz kimi, yeni liman kompleksi Azərbaycan Respublikasının ərazisindən keçən Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşir. Bu coğrafi mövqe, yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək, Xəzər dənizi üzərindən effektiv, sürətli və təhlükəsiz bərə keçidini təmin etmiş olacaq.

Şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə şərq istiqamətində nəql edilməsini təmin edən effektiv və dayanıqlı logistik zəncir yaradıla bilər.

Qeyd edilənlərlə bərabər, yeni limanın ərazisi də daxil olmaqla Ələt qəsəbəsində azad ticarət zonası tipli Xüsusi İqtisadi Zonanın yaradılması nəzərdə tutulub ki, bu da öz növbəsində mühüm nəqliyyat qovşağı kimi yeni limana daha geniş tranzit və daşıma imkanları verəcək.

# "LNG TEXNOLOGİYALARI"NIN AZƏRBAYCANDA İSTİFADƏSİ İLƏ BAĞLI TƏQDİMAT

***Energetika Nazirliyinin dəstəyi ilə "Wartsila" korporasiyası tərəfindən "LNG texnologiyaları"nın Azərbaycanda istifadəsi ilə bağlı təqdimat keçirilib.***

Tədbirdə Energetika, Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, SOCAR-ın, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin və "Bakı Gəmiqayırma Zavodu" MMC-nin məsul şəxsləri iştirak ediblər.

Energetika nazirinin müavini Natiq Abbasov korporasiya barədə məlumat verib. Bildirib ki, "Wartsila" şirkətinin dünyanın 90 ölkəsində 200-dən çox törəmə müəssisəsi mövcuddur. Şirkət modul elektrik stansiyalarının tikilib istismara verilməsi, neft və qaz kompressor avadanlığı, istilik sistemləri kimi sahələrdə böyük təcrübəyə malikdir. Eyni zamanda, şirkət hərəkətverici ləvazimat, avtomatika və enerjipaylama sistemləri də daxil olmaqla, gəmiçilik sahəsi üçün avadanlıq, xüsusilə gəmi mühərrikləri istehsalında dünya liderlərindəndir. Təsadüfi deyil ki, bu gün dünyadakı hər üç gəmidən birinin mühərriki şirkətin müəssisələrində istehsal olunur.





Nazir müavini qeyd edib ki, Azərbaycan "Wartsila" şirkətinin Xəzər regionundakı əsas tərəfdaşlarından biridir. Artıq 12 ildir ki, Azərbaycanda çalışan bu şirkət respublikamızda əsasən neft və qaz sənayesi, elektrik enerjisi istehsalı, dəniz daşımaları sahəsində fəaliyyətlə məşğuldur. "Wartsila" 2005-ci ildən 2010-cu ilədək ölkəmizin ərazisində ümumi gücü 880 meqavat olan modul elektrik stansiyalarının tikilməsi və istismara verilməsi layihələrini uğurla başa çatdırıb. Şirkətin avadanlığı Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri kimi dünya əhəmiyyətli layihənin həyata keçirilməsində fəal rol oynayıb.

"Wartsila" şirkətinin Şərqi Avropa üzrə regional direktoru Yan Talldren iqtisadiyyatı gündən-günə inkişaf edən, regionun lider dövləti olan Azərbaycanda müxtəlif layihələri həyata keçirmələrindən məmnun olduqlarını diqqətə çatdırıb. Bildirib ki, şirkətin Bakıda yeni, genişlənmiş ofis və əməliyyat sahəsi 2008-ci ilin iyununda istifadəyə verilib. Ofis həm elektrik stansiyaları, həm də gəmiçilik sahəsi üzrə satış və servisi təmin edir. Bu servis mərkəzləri, həmçinin şirkətin Mərkəzi Asiyada fəaliyyətini tənzimləyir.

Sonra nümayəndə heyətinin üzvləri "Wartsila" şirkətinin fəaliyyət istiqamətləri üzrə ən müasir texnologiyalara əsaslanan işlərin geniş təqdimatını keçirib, iştirakçıların suallarını cavablandırıblar.

Qeyd edək ki, "Wartsila" korporasiyası qazın daşınmasında və ondan gəmi yanacağı kimi istifadə olunmasında texnoloji yeniliklərin tətbiqində böyük təcrübəyə malikdir. "LNG texnologiyaları"ndan Azərbaycanda uğurla istifadə olunacağını nəzərə alaraq Energetika Nazirliyi bu tədbirin keçirilməsinə dəstək verir.

# SINAQ MƏQSƏDİLƏ "ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZİ İLƏ RUSİYADAN İRANA TAXTA DAŞINIB

***Sınaq məqsədilə "Şimal-Cənub" Nəqliyyat Dəhlizi ilə Rusiyadan İrana taxta daşınıb.***

Bu barədə "ADY Ekspress"dən məlumat verilib.

Bildirilib ki, Azərbaycanın tranzit potensialını artıracaq digər marşrutlarla yanaşı "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi mühüm əhəmiyyət kəsb edən layihələrdən biridir. Dəhliz Hindistan-İran–Azərbaycan–Rusiya–Skandinaviya və Şimalı Avropa marşrutu üzrə fəaliyyət göstərir.

"ADY Express" şirkəti artıq bu nəqliyyat dəhlizi ilə yükdaşımalar həyata keçirir. Bu dəfə sınaq məqsədilə Rusiyadan İrana taxta məmulatları nəql edilib. Yük Rusiyanın Tixonovo stansiyasından çıxaraq dəmir yolu ilə "ADY Express"in Astara stansiyasındakı terminalına çatdırılıb və orada aşırma əməliyyatı keçirəndən sonra yük avtomobillərlə İran ərazisinə nəql edilib. Qeyd edək ki, 907 ton həcmdə olan yük Astara terminalına 16 vaqon vasitəsilə çatdırılıb. Sınaq yükdaşımasından sonra həmin yüklərin, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə davamlı olaraq nəql edilməsi nəzərdə tutulub.






Onu da vurğulayaq ki, Azərbaycanla İran dəmir yollarının birləşdirilməsi layihəsi hələ tam başa çatdırılmamış, artıq "ADY Express" şirkəti tərəfindən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaların həyata keçirilməsi, həmin dəhlizin perspektivindən xəbər verir.

Bir sözlə, əlverişli coğrafi mövqe, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, həyata keçirilən irimiqyaslı layihələr sırasında bu dəhlizin yer alması Azərbaycanın tranzit və yükdaşıma potensialından daha səmərəli və çoxşaxəli şəkildə istifadə edilməsinə geniş imkan yaradır.

# TANAP-IN DƏNİZ HİSSƏSİNİN İNŞASI GƏLƏN İLİN ƏVVƏLİNDƏ YEKUNLAŞACAQ

***Azərbaycan təbii qazının Türkiyəyə və qardaş ölkədən də Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) dəniz hissəsinin tikintisi gələn ilin əvvəlində tam başa çatacaq.***

Bu barədə TANAP-ın baş direktoru Saltuk Düzyol deyib. O qeyd edib ki, TANAP-ın Dardanel boğazından keçən 36 düymlük 18 kilometr uzunluğundakı qoşa boru kəməri artıq dənizə endirilib. Hazırda boru kəmərində son mexaniki işlər görülür və boruların qaynağının qarşıdakı 10 gündə tamamlanması planlaşdırılır. Boru kəmərinin Asiya və Avropa qitələrindəki sahilə çıxan hissələrinə isə qayaların yığılması işləri aparılır ki, bu da boruların sabit qalmasını təmin edəcək. Dəniz dissəsində ümumilikdə işlərin 60 faizi görülüb. Qoşa borunun tikintisi sınaq işləri də daxil olmaqla gələn ilin yanvar-fevral aylarında tam




yekunlaşacaq.

"TANAP-ın dəniz hissəsində ümumilikdə 4 fiber optik kabel çəkiləcək. Bunlardan ikisi TANAP-ın özünə, digər ikisi isə "SOCAR Fiber" şirkətinə məxsus olacaq", - deyə TANAP-ın baş direktoru bildirib.

Qeyd edək ki, boru kəmərinin Dardanel boğazından keçəcək 2x36 düymlük dəniz hissəsi üzrə ötən il iyulun 27-də "TANAP Doğal Gaz İletim A.Ş." şirkəti ilə "Sapura-Kencana" şirkəti arasında müqavilə imzalanıb.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP "Cənub" qaz dəhlizinin tərkib hissəsi olan layihədir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1850 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Layihənin dəyəri hazırda 7,99 milyard ABŞ dollarıdır. TANAP üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 58 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

# AZƏRBAYCANLA MEKSİKA ARASINDA DƏNİZ NƏQLİYYATINDA ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN YAXŞI PERSPEKTİVLƏR VAR



***Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasında Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini Floreslə görüş keçirilib.***

Administrasiyanın mətbuat xidmətindən verilən məlumata görə, qonağı salamlayan Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov Azərbaycan iqtisadiyyatının bütün sahələri kimi, dəniz nəqliyyatı sahəsinin də inkişafının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət mərkəzində olduğunu vurğulayaraq, dövlət başçısının xüsusi diqqət və qayğısı sayəsində dəniz nəqliyyatı sahəsinin dinamik inkişafı üçün böyük imkanlar yaradıldığını diqqətə çatdırıb.

Q.Qurbanov deyib ki, Dövlət Dəniz Administrasiyası qabaqcıl ölkələrin dəniz nəqliyyatı təcrübəsinin öyrənilməsi və bu təcrübənin ölkəmizdə tətbiqinə xüsusi diqqət yetirir. Ölkəmiz bu sahədə çoxtərəfli əməkdaşlıq fəaliyyətini təkcə Beynəlxalq Dəniz Təşkilatı ilə deyil, həmçinin Beynəlxalq Əmək Təşkilatı, Avropa Dəniz Təhlükəsizliyi Agentliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq və regional qurumlarla da inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası 1995-ci ildən BMT-nin nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatına üzv olduğu tarixdən "Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiya", "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya" (SOLAS-74), "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya" (MARPOL), "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya" (STCW), "Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya" (COLREG), "Gəmilərin ölçülməsinə dair Beynəlxalq Konvensiya", "Yük nişanı haqqında Beynəlxalq Konvensiya", "Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında Konvensiya" daxil olmaqla dəniz nəqliyyatı sahəsində 20-dən çox beynəlxalq konvensiya və protokola qoşulub.

Dövlət Dəniz Administrasiyasının rəisi həmçinin bildirib ki, Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupu tərəfindən



28 may-6 iyun tarixlərində Dövlət Dəniz Admnistrasiyasında həyata keçirilən audit yoxlamasının tam obyektivliyə əsaslanan nəticələrinə əsasən, respublikamız 172 dünya dəniz dövləti sırasında ən qabaqcıllar olan Avropa dövlətlərini geridə qoyaraq statistika üzrə ön sırada yer tutub.

Azərbaycanla Meksikanın beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığına toxunan Q.Qurbanov deyib ki, Birləşmiş Millətlər Təşkilatının nüfuzlu orqanı olan Beynəlxalq Dəniz Təşkilatının Şurasında dəniz nəqliyyatı və naviqasiyası üzrə maraqlı dövlətlərin daxil olduğu C kateqoriyası üzrə Meksikanın üzv seçilməsi Administrasiya tərəfindən daim hərtərəfli dəstəklənib.

Azərbaycan ilə Meksika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu, son illərdə siyasi, iqtisadi, ticarət, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın sürətlə inkişaf etdiyini vurğulayan Q.Qurbanov bildirib ki, Meksikanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olması, Latın Amerikası ölkələrindən ilk dəfə olaraq məhz Meksikada Azərbaycan səfirliyinin fəaliyyətə başlaması, eyni zamanda Meksikanın Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə tərəfdar olmaqla bərabər, Xocalı faciəsini soyqırım kimi tanıması tərəfimizdən yüksək dəyərləndirilir.

Qəbula görə təşəkkür edən Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini Flores bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi qeyd edildiyini deyib. Bu illər ərzində Azərbaycanla Meksika arasında dostluq və əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirildiyini qeyd edən səfir bildirib ki, yaxın günlərdə imzalanmış hökumətlərarası təhsil, elm, gənclər, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Saziş ölkələrarası münasibətlərin inkişafında mühüm rol oynayır.

Bundan əlavə, ikitərəfli münasibətlərin inkişafında və möhkəmlənməsində parlamentlərarası əlaqələrin, həyata keçirilən mədəni-humanitar layihələrin, siyasi məsləhətləşmələrin önəmi də xüsusi vurğulanmalıdır.

Qeyd etmək lazımdır ki, son illərdə Azərbaycanla Meksika arasında mövcud ticarət dövriyyəsinin 3 dəfəyə qədər artması ikitərəfli əlaqələrin daha da inkişaf etdiyinə nümunədir.

Görüşdə vurğulanıb ki, Azərbaycanla Meksika arasında digər sahələrlə yanaşı, dəniz nəqliyyatı sahəsində də ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, eləcə də əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar və perspektivlər mövcuddur. Meksikanın bu sahədə böyük və zəngin təcrübəyə malik olduğunu nəzərə alaraq Dövlət Dəniz Administrasiyası bu əlaqələrin intensiv şəkildə inkişaf etdirilməsində və təcrübə mübadiləsinin aparılmasında maraqlıdır və bu istiqamətdə səylərin artırılması, eləcə də daim diqqət mərkəzində saxlanılması zəruridir.

Səfir Labardini, öz növbəsində, səfirliyin fəaliyyəti və onun əsas məqsədlərindən biri – müxtəlif sektorlar üzrə ikitərəfli əlaqələrin möhkəmlənməsi barədə danışıb. Bu xüsusda, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası ilə onun Meksikadakı həmkar qurumu arasında mümkün əməkdaşlığı qeyd edib. Həmçinin, diplomat Meksikada limanların rolu və dəniz sektorunun vacib məlumatlarını diqqətə çatdırıb. Eyni zamanda məlumat verildi ki, Meksikada iki okean – Sakit və Atlantik okeanlara – çıxışı olan yüksək səviyyəli liman qurğuları mövcuddur. Bundan əlavə, əməliyyat qabiliyyətini illik 98 milyon tona çatdırmağı istəyən yeni Verakruz Limanının imkanları vurğulanıb.

Beynəlxalq Dəniz Təşkilatındakı üzvlükləri haqqında söhbət edən tərəflər bu qurum çərçivəsində ikitərəfli əməkdaşlığı müzakirə edərək, məsələ ilə bağlı fikir mübadiləsi aparıblar.

# ALMANİYALI VƏ ÇEXİYALI EKSPERTLƏR AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASINDA OLUBLAR

***Almaniya və Çexiyanın metrologiya institutlarının ekspertləri Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) olublar.***

Almaniya Metrologiya İnstitutunun (Fiziki-Texniki İnstitut – PTB) eksperti İrene Flyuda, Çex Metroloji İnstitutunun eksperti Peter Kişka, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin nümayəndələri ilə ADDA rəhbərliyinin və professor-müəllim heyətinin görüşü keçirilib.

Görüşdə Standartlaşdırma Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Çexiyanın Çex Metroloji İnstitutu və Almaniyanın Fiziki-Texniki İnstitutu (PTB) tərəfindən həyata keçirilən, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan metrologiya sisteminin gücləndirilməsi" üzrə Tvinninq layihəsi çərçivəsində metrologiya sahəsi ilə bağlı hazırlanmış tədris proqramının (kurrikulum) nümunəsi təqdim olunaraq, akademiyanın professor-müəllim heyəti ilə müzakirə edilib.

Tədbirdə çıxış edən SMPDK-nın şöbə müdirinin müavini Yusif Həsənov Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən birgə layihələrin xüsusi əhəmiyyətini vurğulayıb.

Akademiyanın rəhbərliyinin və professor-müəllim heyətinin böyük marağına səbəb olan görüş ümumi müzakirə və fikir mübadiləsi ilə davam edib.





# HƏR ŞEY TƏLƏBƏLƏRİN ÜRƏYİNCƏ İDİ





***Azərbaycan Dövlət Dəniz Akademiyasında ilk dəfə olaraq "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə təhsil alan IV kurs tələbələrinə "Gəmi daxiliyanma mühərriklərinin nəzəriyyəsi" fənni üzrə master-klass dərsi keçirilib.***

Məqsəd gəmi dizellərinin işçi tsiklinin hesabında riyazi modelləşdirmənin tətbiqi yolu ilə az vaxtda, maddi itkilər olmadan mühərrikin istismar parametrlərinin optimal qiymətlərinin riyazi eksperimentlərlə müəyyənləşməsini nümayiş etdirməkdir. Master-klass dərsində tələbələrlə yanaşı, Akademiyanın professor-müəllim heyətinin nümayəndələri, kafedra müdirləri, tədris və tərbiyə işləri üzrə prorektorlar da iştirak ediblər.

Dərs zamanı gəmi dizellərinin işçi tsiklini hesablamaq üçün tərtib olunmuş metodikanın ümumi müddəaları, bu metodikanın kompyuterdə reallaşdırılması üçün "Fortran" alqoritmik dilində hazırlanmış proqram, hesablamanın aparılması qaydası və alınan nəticələr nümayiş etdirilib. Bundan başqa, təqdim edilən proqramdan istifadə olunaraq "Gəncə" tankerinin 6L20 markalı dizel mühərrikinə aid riyazi eksperimentlərin nəticələrinin təhlili yolu ilə yanacaq verilməsinin qabaqlama bucağı, yanacağın başlanğıc püskürmə təzyiqi və istifadə olunan yanacağın növünün optimal qiymətlərinin təyini izah edilib.

Sonda tələbələrin və digər iştirakçıların sualları cavablandırılıb.

# YUNESKO-NUN RƏSMİ FƏALİYYƏTƏ BAŞLAMASINDAN 71 İL ÖTÜR

***Noyabrın 4-ü BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatı - YUNESKO-nun rəsmi fəaliyyətə başladığı gündür.***

YUNESKO 1946-cı ildə 20 üzv dövlətlə rəsmi olaraq fəaliyyətə başlayıb. Qurumun fəaliyyəti təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlib. Hazırda 200-ə yaxın dövlət, o cümlədən Azərbaycan YUNESKO-nun üzvüdür. İndiyədək təşkilatla elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın inkişafı üçün mühüm sənədlər imzalanıb, tədbirlər həyata keçirilib.

Ulu öndər Heydər Əliyevin 1994-cü ildə imzaladığı Sərəncamla YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılıb. 2005-ci ildə Prezident İlham Əliyev Milli Komissiya ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Azərbaycan-YUNESKO əlaqələrinin inkişafında və möhkəmləndirilməsində Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban Əliyevanın əvəzsiz xidmətləri var. Təsadüfi deyil ki, 2004-cü ilin sentyabrında Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın xoşməramlı səfiri adına layiq görülüb.

Məhz Mehriban Əliyevanın ciddi səyləri nəticəsində muğam və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də Azərbaycan xalçası, Novruz bayramı, kəlağayı sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bundan başqa, İçərişəhər, Qız qalası və Şirvanşahlar saray kompleksi YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Bakıda Beynəlxalq Muğam Mərkəzi istifadəyə verilib. Azərbaycanda Beynəlxalq Muğam festivalları keçirilib. 2009-cu ildə birinci Beynəlxalq Muğam festivalının keçirilməsi münasibətilə YUNESKO-nun o vaxtkı baş direktoru Koişiro Matsuura Azərbaycana səfər edib. Səfər çərçivəsində K.Matsuura Bakıda Müasir İncəsənət Muzeyinin açılış mərasimində və Novruz bayramı şənliklərində iştirak edib.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin YUNESKO çərçivəsində qeyd edilməsi də bu qurum ilə əlaqələrin yüksək səviyyəsinin bariz göstəricisi sayıla bilər. Məhəmməd Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin, "Leyli və Məcnun" operasının ilk tamaşasının, görkəmli yazıçı, alim Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu sıradan olan digər tədbirlər YUNESKO çərçivəsində böyük təntənə ilə qeyd edilib.

Azərbaycanın gənc istedadları - Dövlət Gənclər Simfonik Orkestri və Uşaq xoru - "Azərbaycanın xoşməramlı mələkləri" də dəfələrlə YUNESKO-nun iqamətgahında çıxış ediblər. Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşan bütün bu tədbirlər Azərbaycan mədəniyyətinin zənginliyini, möhtəşəmliyini nümayiş etdirməklə yanaşı, ölkəmiz haqqında həqiqətlərin yayılması baxımından da böyük önəm kəsb edir.

YUNESKO ilə Azərbaycan arasında elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi üçün Bakıda da bir sıra beynəlxalq tədbirlər keçirilib.

2010-cu ilin iyulunda YUNESKO-nun baş direktoru İrina Bokova Azərbaycanda səfərdə olub, Qəbələdə İkinci Beynəlxalq Musiqi Festivalında iştirak edib, bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşdırılması, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərinə, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfələrinə görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya "Qızıl Motsart" medalı təqdim edib.

Azərbaycan-YUNESKO əlaqələri ildən-ilə daha da genişlənir. 2011-ci ilin oktyabrında YUNESKO-nun Parisdəki mənzil-qərargahında təşkilatın 36-cı sessiyası keçirilib. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva sessiya çərçivəsində "YUNESKO-nun dünya mədəniyyəti və dayanıqlı inkişafda rolu nədən ibarətdir?" mövzusunda Liderlər Forumunda çıxış edib. 36-cı sessiyada Azərbaycan YUNESKO Baş Konfransının vitse-prezidenti seçilib. Bu, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın yüksək fəaliyyəti sayəsində ölkəmiz ilə qurum arasında əlaqələrin bariz göstəricisidir.

2012-ci ilin oktyabrında isə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Parisdə xoşməramlı səfirlərin dünyada təhsilin vəziyyətini öyrənmək üçün həyata keçirilən qlobal monitorinqin hesabatına həsr olunan illik toplantısında iştirak edib. Təsadüfi deyil ki, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biri də təhsilin inkişafıdır.

YUNESKO-nun mənzil-qərargahında Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə gerçəkləşən mədəni tədbirlər, Azərbaycanın inkişafı, tarixi, mədəniyyəti ilə bağlı təqdimatlar, ölkəmizin mədəni abidələri, təbiəti, səfalı yerləri, xalçaçılıq sənəti, mətbəxi barədə bir-birindən maraqlı nəşrlər, kataloqlar da ölkəmizin tanıdılması baxımından böyük önəm daşıyır. Azərbaycanın tanınmış incəsənət ustalarının, eləcə də gənc istedadların YUNESKO-nun iqamətgahında möhtəşəm çıxışları isə Azərbaycan mədəniyyətinin zənginliyini, möhtəşəmliyini bir daha nümayiş etdirir.




## XƏZƏR DƏNİZİNDƏKİ İŞLƏR ÜÇÜN ELMİ-TƏDQİQAT GƏMİSİ İNŞA EDİLİB

***Estoniyanın Saaremaa adasında fəaliyyət göstərən "Baltic Workboats" şirkəti Xəzər dənizindəki işlər üçün uzunluğu 25 metr, dəyəri 3 milyon avro olan elmi-tədqiqat gəmisi hazırlayıb.***

"Sifarişçi Xəzər dənizində quraşdırılan neft hasil edən platformaların yaxınlığında dəniz mühitinin vəziyyətini öyrənən elmi-tədqiqat özəl şirkətidir", - deyə "Baltic Workboats" şirkətinin idarə heyətinin üzvü Yuri Taal bildirib.

Y.Taalın sözlərinə görə, gəmi suyun yoxlanması məqsədilə hasara alınma və balıq vətəgələrinin monitorinqini həyata keçirmək üçün uyğunlaşdırılıb.

"Baltic Workboats" - Estoniya kapitalı ilə əsası qoyulan alüminium və poladdan işçi gəmilər istehsal edən şirkətdir. Şirkətin məhsul portfelinə losman, keşikçi, yedək gəmiləri, bərələr, katamaranlar və digər işçi gəmilər daxildir.

## "İNTERTEK" ŞİRKƏTİ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ İLƏ BAĞLI BAKI LİMANINA SERTİFİKAT VERİB

***"İntertek" şirkəti əməyin təhlükəsizliyi ilə bağlı "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-yə sertifikat verib.***


intertek
Total Quality. Assured.

CERTIFICATE
OF REGISTRATION

This is to certify that the management system of:
"Baku International Sea Trade Port" CJSC
Main Site: Uzeyir Hajibayov str.72
Marine station, junction of Nobel ave. and Neftchilar ave. (Physical adress)
Baku, Azerbaijan
has been registered by Intertek as conforming to the requirements of:
OHSAS 18001:2007
The management system is applicable to:
Integrated multi-purpose port facilities for storage, loading and unloading of containers, breakbulk and bulk cargo

Certificate Number: OHS 170939-01
Initial Certification Date: 22 September 2017
Date of Certification Decision: 22 September 2017
Issuing Date: 22 September 2017
Valid Until: 21 September 2020

Calin Moldovean
President, Business Assurance
Intertek Certification Limited, 10A Victory Park, Victory Road, Derby DE24 8ZF, United Kingdom
Intertek Certification Limited is a UKAS accredited body under schedule of accreditation no. 014.

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən məlumat verilib.

Bildirilib ki, Bakı Limanı daimi olaraq əməkdaşlarının təhlükəsizliyini və sağlamlığını düşünən və bunun üçün hər zaman lazımi işləri ən yüksək səviyyədə həyata keçirən bir qurumdur. Bunun nəticəsi olaraq, Bakı Limanı OHSAS 18001:2007 Occupational Health & Safety (iş sağlamlığı və təhlükəsizliyi) standartı üzrə sertifikatlaşmadan uğurla keçib və sertifikat qazanıb.

Alınmış bu sertifikat Bakı Limanında əməyin təhlükəsizliyi idarəetmə sisteminin mövcud olduğunu və həmin idarəetmə sisteminin əməyin təhlükəsizliyi üzrə beynəlxalq OHSAS 18001 standartının bütün tələblərinə cavab verdiyini təsdiqləyir.

"İntertek" şirkətinin Azərbaycandakı nümayəndəliyi Bakı Limanında yoxlamalar keçirərək limanda aparılan işlər zamanı əməyin təhlükəsizliyinin səviyyəsini təhlil edib, əməyin təhlükəsizliyinin OHSAS 18001:2007 (Occupational Health and Safety Assessment Series) standartına cavab verdiyini təsdiqləyərək müvafiq sertifikatı təqdim edib.

# "JEWİSH JOURNAL" QƏZETİ: "AZƏRBAYCAN HİTLERİN MƏĞLUB OLUNMASINA NECƏ KÖMƏK ETDİ"

***Amerikada çıxan "Jewish Journal" qəzetində Azərbaycan Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayevin "Azərbaycan Hitlerin məğlub olunmasına necə kömək etdi" sərlövhəli məqaləsi dərc edilib.***

Həmin materialda nasist Almaniyası üzərində qələbəyə Azərbaycanın töhfəsindən bəhs edilir.

Müəllif yazır ki, süvari ordunun üstünlük təşkil etdiyi əvvəlki müharibələrdən fərqli olaraq, İkinci Dünya müharibəsi dövründə mexanikləşdirilmiş ordu xüsusi rol oynayıb. Yevdayev vurğulayır ki, müharibənin bu yeni növündə Vermaxtın öz tanklarının və təyyarələrinin hərəkətini təmin edə bilməsi üçün ona neft lazım idi. Lakin Almaniyanın öz neft yataqları yox idi, buna görə Adolf Hitler Azərbaycanın neft yataqlarını ələ keçirməyi qərara almışdı. Bu, ilk növbədə Vermaxtı lazımi miqdarda neftlə təmin etməli idi. Bundan əlavə, Azərbaycan neft yataqlarının ələ keçirilməsi Sovet ordusunun bütün cəbhə boyu irəliləmək imkanının qarşısını alardı.

1942-1943-cü illərdə Şimali Qafqazdan Azərbaycana tərəf yollanan alman hərbi maşını Stalinqradda dayandırıldı və bu, nasistlərin Bakıya gedən yolda fəlakətli məğlubiyyətini təmin etdi.




Müəllif yazır ki, İkinci Dünya müharibəsi dövründə cəbhə xəttində 700.000 Azərbaycan əsgəri, o cümlədən 100.000 Azərbaycan qadını vuruşurdu. Müharibə sona çatana qədər 400.000 azərbaycanlı həlak olub. Ön cəbhə xəttində nasistlərlə döyüşlərdə minlərlə Azərbaycan yəhudisi canından keçib. Faşizmə qarşı müharibədə Azərbaycanın əsas töhfələrindən biri də bu olub ki, respublikamız Sovet ordusuna hər il 23,5 milyon ton neft göndərib. 1941-1945-ci illərdə Sovet İttifaqının neft mədənlərində işləyənlərin 70 faizdən çoxu Bakı neftçiləri idi, Sovet İttifaqında istehsal edilən yanacağın ümumi həcminin 80 faizdən çoxu Bakı neftinin payına düşürdü.

Azərbaycanın dağ yəhudiləri bir fakta görə də fəxr edirlər ki, o çətin illərdə Azərbaycan neft sənayesində mühüm simalardan biri Azərbaycan Yəhudi İcmasının üzvü Yakov Mixayloviç Aqarunov olub.

Yevdayev öz məqaləsində oxuculara Heydər Əliyev Fondunun dəstəyi, Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə çəkilmiş və 2015-ci ilin may ayında "National Geographic" kanalında nümayiş etdirilmiş "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" adlı sənədli filmə baxmağı tövsiyə edir.

Müəllif yazır ki, müstəqil Azərbaycan 1994-cü ildə daha bir uğur qazandı: Azərbaycan Hökuməti Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" neft yataqlarının birgə işlənməsi və hasilatına dair qərbin neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu kontraktın icrası nəticəsində alınan gəlirlərdən ölçülüb-biçilmiş şəkildə istifadə edilməsi sayəsində Azərbaycan Cənubi Qafqazın ən iri iqtisadiyyata malik olan və ən çox inkişaf etmiş ölkəsinə çevrilib. Məqalənin sonunda qeyd edilir ki, 2017-ci il sentyabrın 14-də həmin müqavilə yenilənib və yeni variant 2049-cu ilin sonuna qədər qüvvədə olacaq.

*Yusif Babanlı*

## "TÜRK AXINI" QAZ KƏMƏRİNİN RUSİYA HİSSƏSİNİN ÇƏKİLİŞİ TAMAMLANIB




***"Türk axını" qaz kəmərinin Rusiya hissəsinin tikintisi başa çatıb.***

Vesti.ru saytı xəbər verir ki, noyabrın 4-də kəmərin Türkiyə ərazisində tikinti işlərinə başlanılıb. Bu hadisə münasibəti ilə sərhədlərin keçilməsinin rəmzi olaraq, Qara dənizin dibində iki ölkənin bayrağı olan boru qoyulacaq.

Sualtı sahəsinin uzunluğu 930 kilometr olan kəmərin dörddəbir hissəsi artıq hazırdır. Tikintinin orta sürəti sutkada 4 kilometr təşkil edir. Qaz kəmərinin dəniz sahəsinin ən dərin yeri (2000 metrdən çox) məhz Rusiya-Türkiyə sərhədindən keçir.

Kəmərin hər iki xətti Türkiyə tərəfində quruya İstanbulun təxminən 100 kilometrliyində çıxacaq. İlk qazın çatdırılması isə 2019-cu ilin sonlarına planlaşdırılır.

## DƏNİZ SAHİLİNDƏ HEYKƏLTƏRAŞLIQ

***"Dəniz yaxınlığında heykəltəraşlıq" – bu günlər Avstraliyanın Sidney şəhərində keçirilən illik sərgi belə adlanır.***

TASS informasiya agentliyi xəbər verir ki, Tamarama çimərliyində və buradan okean boyunca Sidneyin digər çimərliyinədək uzanan piyada cığırının ətrafında açıq səma altında 100-dən çox müasir incəsənət əsəri qoyulub. Onların müəllifləri Avstraliya, Yeni Zelandiya, ABŞ, habelə Asiya və Avropanın 15 ölkəsindən olan heykəltəraşlardır.

On səkkiz günədək davam edəcək bu qeyri-adi sərgiyə Sidneyin yüz minlərlə sakininin və Avstraliyanın digər böyük şəhərlərindən gələn turistlərin baxacağı gözlənilir. Heykəllərin əksəriyyəti abstrakt incəsənət nümunələridir.





## SÜNİ GÖLLƏRDƏ İLK DƏFƏ YÜKSƏK KEYFİYYƏTLİ ƏMTƏƏ BALIQLARI YETİŞDİRİLİB



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Zoologiya İnstitutu ölkəmizdə ekoloji təmiz məhsulların alınması istiqamətində apardığı eksperimentlər üzrə uğurlu nəticələr əldə edib. Belə ki, institutun Mingəçevir elmi təcrübə dayaq məntəqəsində aparılan tədqiqatlar nəticəsində ərazidəki göllərdə təbii şəraitə maksimum uyğunlaşdırılmış, parazitoloji analizdən keçirilmiş və yüksək ekoloji keyfiyyətə malik üç növ balıq yetişdirilib.***

Zoologiya İnstitutundan bildirilib ki, yetişdirilmiş bir tona yaxın balıq bu elm müəssisəsinin əməkdaşlarına paylanıb, bir qismi isə AMEA-nın İşlər İdarəsinə təhvil verilib. Böyük elmi əhəmiyyətə malik bu tədqiqatlar zamanı göllərdə yetişdirilən birillik çəki, ağ amur, qalınalın balıqlarının böyümə və inkişafının yem rasionundan, normativlərindən, parazit faunasından asılılığı öyrənilib. Tədqiqat ölkəmizdə əmtəə balıqçılığının inkişafı baxımından da böyük əhəmiyyət kəsb edir. Əldə olunmuş nəticələr ölkə ərazisində göllərdə ekoloji təmiz balıqların yetişdirilməsinə yeni imkanlar yaradır. Artıq göllərdə naxa balığının da süni çoxaldılmasına başlanılıb.



Tədqiqatın nəticəsinin balıqçılıq təsərrüfatı ilə məşğul olan sahibkarlar üçün xüsusi maraq kəsb edəcəyini nəzərə alaraq göl balıqçılığı üzrə ödənişli kurslar keçiriləcək.

# İNSULTDAN SONRAKI MƏRHƏLƏDƏ BƏRPA MÜALİCƏSİ

***Baş-beynin qan dövranının pozulması qan təchizatının beyin damarlarında tutulma, azalma, digər anomaliya və qanaxma nəticəsində neyronların zədələnməsinə və ya məhvinə səbəb olan prosesdir. Beyin qan dövranının pozulması kəskin və xroniki olur.***



AZƏRTAC xəbər verir ki, insultlar barədə danışan Bakı Sağlamlıq Mərkəzinin həkim-nevroloqu Sevinc Salamovanın dediyinə görə, kəskin beyin qan dövranı pozğunluğuna insultlar, tranzitor işemik ataklar və subaraxnoidal qansızmalar aiddir. Baş-beynin qan dövranında ən mühüm ağırlaşmalar insultlardır. İnsult nəticəsində məhv olmuş sinir hüceyrələrinə aid bir sıra pozulmalara - ifliclər, udmanın pisləşməsi, müvazinətsizlik, keyləşmələr, ağrılar, bəzi ağır xəstələrdə qeyri-iradi sidik və ya nəcis ifrazı, nitq çətinliyi, depressiya, hövsələsizlik və əsəbilik aiddir.

İnsultdan sonrakı bərpa müalicəsi bir qayda olaraq, uzunmüddətli medikamentoz və qeyri-medikamentoz kompleks tədbirlərin məcmusudur. Reabilitasiya insultu "sağaltmır", yəni, kəskin qan dövranı pozulması nəticəsində məhv olmuş sinir hüceyrələrini həyata qaytarmır. Lakin xəstələrə insultdan sonra mümkün ən yaxşı yekun nəticə əldə etməyə imkan verərək ömrü uzadır və ağırlaşmadan sonra itirilmiş-pisləşmiş funksiyalarını yaxşılaşdıraraq gündəlik həyata uyğunlaşmağa kömək edir.

Həkim-nevroloq deyib: "İnsultun ağırlıq dərəcəsindən asılı olaraq, reabilitasiya tədbirləri müalicə müəssisəsində və ya evdə aparıla bilər. Hər iki halda bərpa müalicəsinin nevroloq, reabilitoloq, psixonevroloq, fizioterapevt və nitq mütəxəssisindən ibarət komandanın nəzarəti altında aparılması daha yaxşı nəticə verir.

Heyvani piyləri az olan, meyvə və tərəvəzlə, "Omeqa-3" yağ turşuları ilə zəngin və az duzlu pəhriz arterial təzyiqi və xolesterini azaldaraq ürək-damar sistemi xəstəlikləri, insult və təkrar insult riskini aşağı salır. Müalicənin əsas məqsədi dərman vasitələri ilə növbəti insultun qarşısını almaq, ürək-damar sisteminin funksional vəziyyətini yaxşılaşdırmaqdır.

Qeyri-medikamentoz bərpa müalicəsi reabilitasiya üçün dərmanlar qədər və bəlkə də onlardan daha artıq əhəmiyyətlidir. Burada müxtəlif kompleks metodlar - bədən tərbiyəsi, fizioterapiya, kurort-sanatoriya, psixoterapiya, kompüter və robot texnikasına əsaslanmış müalicə tətbiq edilir. İdeal şəraitdə reabilitasiya prosesinə həkim-nevroloq da qoşulur. Ağır funksiya pozulmalarının bərpası bir qayda olaraq xəstəxana şəraitində, ən yaxşısı isə ixtisaslaşmış müəssisədə daha uğurla aparılır".

İnsultun müalicə formaları barədə danışan həkim-nevroloq söyləyib: "Fiziki-motor aktivliyi yaxşılaşdırmaq üçün motor-bacarıq çalışmaları, hərəkətlilik məşqi, məhdudlaşdırma-induksiya, hərəkət həcmi və texnologiya vasitəsilə aparılan müalicə və metodlar da mövcuddur. Yerişi yaxşılaşdırmaq üçün müvazinət treninqi, spesifik çalışma məşqləri, qaçış cığırı qurğusunda və ya hissəvi dayaqla çalışmalar icra olunur. Kompüter texnologiyalarına əsaslanan müalicə üsulunun kliniki tədqiqatlarda yerişi yaxşılaşdırmağa səbəb olduğu aşkar edilib. Hemiplegik insultda topuq protezinin yerişə müsbət təsir etməsi də məlum faktdır. İnsultun xroniki mərhələsində elektrik stimulyasiyası iflic olmuş əzələlərin spastikasını azaldır. Botoks preparatı həm yuxarı, həm də aşağı ətrafların ifliclərində spastikanı yaxşı azaltsa da, funksional baxımdan yerişi yaxşılaşdırmır. Yuxarı ətrafların zəifləməsi ilə bağlı kliniki tədqiqatlara əsasən xüsusi güc məşqləri müsbət təsir göstərir. Robotik qurğular vasitəsilə bazu-çiyin və dirsək oynaqlarına aid olan əzələ zəifliyinin müalicəsində müsbət nəticələr əldə olunur. Funksional elektrik stimulyasiyası metodu xüsusilə yuxarı ətraf əzələlərinin zəifliyində yüksək nəticələr göstərir. Maqnit və elektrik sinir stimulyasiyası bəzi məlumatlara görə hərəkət sistemi pozulmalarında, ağrı sindromları və koqnitiv pozulmalarda bir qədər müsbət təsir edir.

Ənənəvi tətbiq olunan masaj müalicəsi motor aktivliyin bərpasına plasebodan daha artıq təsir etməsə də, insultdan sonrakı dövrdə ağrı və həyəcanı azaldaraq xəstənin ümumi vəziyyətinə müsbət təsir göstərir.

ABŞ-ın Harvard Universitetinin alimləri neyroqliyadan alınmış kötük hüceyrələrinin autotransplantasiyası ilə insult, parkinson və alzeymer xəstəliklərinin müalicəsi ilə bağlı yeni metodika üzərində işlərini davam etdirirlər. Ehtimal olunur ki, həmin üsul gələcəkdə insultun əsl sağaltma metodu olacaq".

Müalicə metodu barədə söhbəti davam edən mütəxəssis daha sonra deyib: "İnsultdan sonra reabilitasiya tədbirlərinə nə qədər tez başlanılsa, o qədər yaxşı səmərə verər. Amma reallıq budur ki, insultdan sonra mühüm vəzifələr xəstənin vəziyyətini stabilləşdirmək, həyati vacib funksiyaları nəzarət altına almaq, təkrar insulta imkan verməmək, insult nəticəsində həyata təhlükə yaradan ağırlaşmaları məhdudlaşdırmaqdır. Ümumiyyətlə, ilk 24-48 saatdan sonra artıq reabilitasiya tədbirlərinə başlanıla bilər. Elementar olaraq, xəstənin vəziyyətinin dəyişdirilməsi, vəziyyəti imkan verirsə ətraflarının aktiv və ya ehmal şəkildə passiv hərəkət etdirilməsinə başlamaq lazımdır. Bərpaedici tədbirlərin konkret davam müddəti yoxdur və xəstədə yaxşılaşmanın hansı sürətlə getməsindən asılıdır.

Reabilitasiyanın uğurlu nəticəsi və onun dərəcəsi fərdidir. Xəstəlikdən nə qədər uzun müddət keçibsə, bərpa da bir o qədər çətinləşir. Xəstə nə qədər pozitiv olsa, bərpa da o qədər uğurlu olar. Ailə və dostların dəstəyi xəstə üçün, xəstəliyin reabilitasiyası üçün böyük köməkdir.

Müalicənin effekti insultdan sonrakı həftələr və ya bir neçə ay keçəndən sonra hiss olunur. Amma bu, o demək deyil ki, vaxt çox keçəndən sonra yaxşılaşma baş verməyəcək. Əvvəllər hesab olunurdu ki, altı aydan sonra bərpa demək olar ki, mümkün deyil. Lakin son illər ABŞ-da reabilitasiya mərkəzlərində aparılan geniş tədqiqatlar sübut edib ki, bir il və ya il yarım müddətdən sonra da kifayət qədər uğurlu nəticələr alınır. Ona görə də səbirlə və səylə çalışaraq heyrətamiz nəticələr əldə etmək mümkündür. Sadəcə həm xəstə, həm də onun ailə üzvləri nəzərə almalıdırlar ki, insultdan sonra bərpa uzun, davamlı və ardıcıl bir prosesdir və ruhdan düşməyərək onu davam etmək yeganə çıxış yoludur".

# ÖZÜNÜ DÜNYANIN MİNBİR GÖZƏLLİYİNDƏN MƏHRUM ETMƏMƏK ÜÇÜN ƏN DÜZGÜN YOL GÖZLƏRİ QORUMAQDIR

***Dünyanın gözəlliklərinə tamaşa etmək və ondan zövq almaq böyük xoşbəxtlikdir. Göz nurunu itirənlər və görmə qabiliyyəti zəif olanlar həmin xoşbəxtlikdən məhrumdurlar. Ona görə də özünü dünyanın minbir gözəlliyindən məhrum etməmək üçün ən düzgün yol gözləri qorumaqdır.***



Müasir dövrdə görmə zəifliyindən əziyyət çəkməyənlər çox azdır. İstənilən sivil ölkənin 21 yaşdan yuxarı olan sakinlərinin hər onundan doqquzu həmin problemdən əziyyət çəkir. Aydın məsələdir ki, yaş artdıqca görmə zəifliyi daha da dərinləşir. Yaşı 40-ı ötənlər arasında isə görmə problemi olmayanlara ümumiyyətlə nadir hallarda rast gəlinir. Oftalmoloqlar görmə qabiliyyətini yaxşılaşdırmaq, görmə itiliyini artırmaq və göz əzələlərini möhkəmləndirmək üçün nəzərdə tutulan müalicəvi gimnastika və müxtəlif dərman vasitələri məsləhət görürlər.

Ahıl yaşlarda görmə qabiliyyətində yaranmış zəifliyi azaltmaq üçün gicitkəndən hazırlanmış şorba, qutab və kükü kimi yeməklərlə qidalanmaq lazımdır.

Yetişmə mərhələsində olan yerkökünün yaşıl hissəsi təzə halda yeyiləndə və ya salatlara qatılanda gözün görmə qabiliyyətində yaxşılaşdırmaya səbəb olur. Onun yaşıl hissələrini qurudaraq ədviyyat kimi də istifadə etmək olar. Qaragilə, quşüzümü, soğan, sarımsaq, badam, qara gilas, cəfəri, xiyar, şüyüd, kök, çuğundur və kərəviz kimi meyvə-tərəvəzlər gözün görmə qabiliyyətini yaxşılaşdırır. Qida rasionunda əsasən tərkibi A, B qrup vitaminləri ilə zəngin olan ərzaqlardan istifadə edilməlidir.

Görmə qabiliyyətinin yaxşılaşdırılması üçün bir sıra xalq təbabəti üsulları da var.

Təzə yığılmış keşniş xırdalanır və gündə 1-2 dəfə10-20 dəqiqə gözlərin üstünə qoyulub saxlanılır.

Toyuq korluğu zamanı gündə iki dəfə yeməkdən sonra bir qədər suda həll edilmiş 1 damcı dəmrovotu şirəsi içmək lazımdır.

Kələm yarpaqları təmiz yuyularaq qaynadılır, soyuyandan sonra yarpaqları gündə 3-4 dəfə yeyilir, qaynadıldığı su içilir.

Kartofun üzərində yaranan cücərtilər toplanaraq qurudulur, alınan xammaldan 1 xörək qaşığının üzərinə 1 stəkan 40 faizli spirt əlavə edilir, 1 sutka saxlanılır, süzülür və gündə üç dəfə yeməkdən sonra 1 çay qaşığı qəbul edilir.

Gülümbahar və göyçiçəyin dəmləmələri islatma şəklində göz qapaqlarının üzərinə qoyulanda göz yorğunluğunu aradan qaldırır.

Yaxındangörmə zamanı qurudulub üyüdülmüş yemişan meyvələri 1:1 nisbətində balla qarışdırılaraq gündə 3 xörək qaşığı qəbul edilir.

# BEŞ AY AÇIQ DƏNİZDƏ



***Amerikalı hərbçilər quru ilə heç bir əlaqə olmadan Sakit okeanda beş ay qalan iki qadını xilas ediblər. Onların səyahət yaxtası təxminən yarım il neytral sularda idarə olunmaz vəziyyətdə qalıb.***

Euronews telekanalı xəbər verir ki, macəra axtaran qadınlar özləri ilə iki it götürərək may ayında Qonolulu limanından kiçik gəmidə səyahətə çıxıblar. Onlar təkbaşına Taitiyə üzmək istəyiblər. Bütün səyahət bir neçə həftə davam etməli idi. Lakin yaxta qasırğaya düşərək zədələnib və mühərriki sıradan çıxıb.

Güclü külək yaxtanı açıq dənizə aparıb. Qadınlar xilas olmaq üçün siqnal göndəriblər, lakin onlar qurudan çox uzaqda idilər və yaxınlıqdan heç bir gəmi keçmirdi. Səyahətçilərin yaxtası Taitidən 8 min kilometr aralanıb və demək olar ki, Yaponiyaya yaxınlaşıb.

Bu müddət ərzində qadınlar və onların itləri dəniz suyunu təmizləmə qurğusu, həmçinin yulaf yarması, makaron və düyü kimi qida ehtiyatları sayəsində sağ qala biliblər.



# HƏMVƏTƏNİMİZ ZÜLEYXA İZMAYILOVA TALLİNİN VİTSE-MERİ OLACAQ

***Həmvətənimiz Züleyxa İzmayılova Tallinin vitse-meri olacaq. "Estoniya Yaşılları" partiyasının sədri Züleyxa İzmayılova haqqında ictimaiyyət bir o qədər də məlumatlı deyil.***

Z.İzmayılova 1985-ci ildə Tallində dünyaya göz açıb. Anası eston, atası azərbaycanlıdır. O, atasının vəfatınadək Azərbaycanda yaşayıb, sonra Estoniyaya qayıdıb. Z.İzmayılovanın iki övladı var. Həyat yoldaşı Yoonas Laks yol tikintisi ilə məşğul olan TREV-2 firmasında iri layihələrin satış rəhbəridir.

Bundan əvvəl Z.İzmayılova özünü mediada jurnalist, müstəqil fotoqraf və fəal kimi təqdim edib. O, ətraf mühitin qorunması məsələləri ilə məşğul olan "Estoniya Yaşıllar Hərəkatı" təşkilatında könüllü kimi fəaliyyət göstərib. 2005-ci ildən siyasətlə məşğul olmağa başlayan Z.İzmayılova Sosial-Demokrat Partiyasına qəbul edilib. 2012-ci ilədək həmin partiyanın üzvü olub, iki il bitərəf qalıb, sonra "Estoniya Yaşılları"na qəbul olunub. 2017-ci ilin martından bu partiyanın sədridir.

***Nigar Cəfərli***

# SU ANBARLARININ EHTİYATLARI TÜKƏNMƏK ÜZRƏDİR

***İordaniyada güclü quraqlığın davam etməsi nəticəsində su çatışmazlığı ilə bağlı ciddi problemlər yaranıb, əksər su anbarlarının ehtiyatı demək olar ki, tükənib.***

Interfax informasiya agentliyi xəbər verir ki, hazırda İordaniyadakı anbarlarda cəmi 20 faiz su qalıb. Bundan əlavə, İordan çayının ən iri qolu olan Yarmuk çayında suyun səviyyəsi xeyli aşağı düşüb.

"Vaxtında lazımi tədbirlər görməsək, daha ciddi problemlərlə qarşılaşa bilərik", - deyə İordaniyanın Su Resursları Nazirliyinin nümayəndəsi Əli Subah bildirib.

Son tədqiqatlar göstərir ki, iqlim dəyişiklikləri İordaniyada ekoloji vəziyyətə ciddi təsir göstərib. Meteoroloqlar son zamanlar havanın daha quraq və isti keçdiyini qeyd edirlər. Onların sözlərinə görə, 2100-cü ildə ölkədə yağıntının miqdarı 30 faiz azala bilər.



# YARIZARAFAT, YARIGERÇƏK

**Adam var, problem nə olduğunu bilmir, adam var probleminin nədən ibarət olduğunu.**

**Gələcəyə getmək istəyən bütün keçmişini özünə yük eləməməlidir.**

**Ürəkdən gülə bilirsənsə, deməli yaşayırsan.**

**Öz zəif cəhətlərini görməyənlər yazıq, görmək istəməyənlər naqis adamlardır.**

**Yaxşılar o qədər çox deyil ki, hər yaxşının qabağına yaxşı çıxsın.**

**Tamah çox adamın ağasıdır.**

**Bəzi adamların ayaqüstə dayana bilməməsinin səbəbi odur ki, onları həmişə hardasa otuzdurmağa çalışıblar.**

**Yaxşı ki, xoşbəxtlik satılmır.**

**İnsanları üzməmək istəyirsinizsə, ümidlərini üzməyin.**

**Yuxu ölümün yarısıdır.**

**Allaha inanıram. İnanmağa başqa kimsə qalıbmı?**

**Məni xatırlayacaqlarsa, harda basdırılacağımın əhəmiyyəti yoxdur.**

**Arxasınca baxmayan adamın dalınca qaçmazlar.**

**Bəziləri işığımızı, bəziləri də işığımızın qabağını kəsirlər.**

**Haqqın ətəyini heç vaxt buraxmayın.**

**Xoşbəxtlikdən qadınlar elə bilirlər ki, kişilər dedi-qodu etmirlər.**

**Özünə tez-tez hesabat verməyənin Allah qarşısında hesabatı necə olacaq?**

**Ədalətsiz adamın güclü olmasından pis heç nə yoxdur.**

**Bəla o deyil ki, kimlərsə çox bilmir. Bəla odur ki, bəzən heç nə bilməyənlər çox bildiklərini başqalarına qəbul etdirmək istəyirlər.**

**Çarəsini bilən də bəla axtarmamalıdır.**

**Sözlə qılıncla davrandığından daha ehtiyatlı davranmağı bacarmayan tez-tez kəsilə-kəsilə qalar.**

**Səhv anlamaqdansa, anlamamaq daha yaxşıdır.**

**Adamın başında ancaq papaq olmalıdır?**

**Qaranlıqdan qorxursansa, həqiqətin işığı düşən yerdə ol.**

**Həqiqətdən qorxduğu kimi heç nədən qorxmayanlara qorxu duası da kömək eləməz?**

**Bilsəm ki, zərrəcə təmizlənərlər, hamının günahını boynuma götürərəm.**

**Özü ilə səmimi olmayan başqaları ilə də səmimi ola bilməz.**

**Pislikdən başqa hər şeyin öz vaxtı var.**

**İntizam nələri isə etməməkdir.**

**Dünyaya nə vaxt gəldiyindən çox, niyə gəldiyini unutma.**

**Düşmənlərimizdən daha çox, dostlarımızda yanılırıq.**

**Bəlkə də övladlarım məndən başqa şeylər gözləyiblər. Mənim ancaq təmiz ada gücüm çatdı.**

**Yaxşı ki, bəzi adamlara yalnız orta məktəbin aşağı siniflərində oxuyanda nəyisə diqtə edə biliblər.**

**Hər kəsin öz baxış bucağı var: iti, düz və ya kor.**

**Vaxtında danışa və vaxtında susa bilməyən vaxtında gördüyü bütün işləri heçə çevirir.**

**Düşmənim həmişə güclü olub və kimsə ondan artıq mənə düşmənçilik edə bilməyəcəyi üçün narahat deyiləm.**

**Kimsə məni harasa qaldırmayıb ki, aşağı buraxacağından qorxum.**

**Həqiqət birdir. Hər kəsin həqiqəti isə həqiqətə necə yanaşmasındadır.**

**Böyük yalanlar hətta kiçik həqiqətlərin də qabağını daim kəsə bilməz.**

**Zəiflərin arasında ən zəifi inamı zəif olanlardır.**

**Hər kəs nə vaxtsa uşaq olub. Böyük olmağı isə hər kəs bacarmır.**

**Bəzən bizə elə gəlir ki, Tanrı bizə bir ömür borclu idi və verib. Biz də o ömrü necə istəsək, "xərcləyə" bilərik.**

**Kişilər qadınları bəzən həyatdan da gec dərk edirlər.**

***Rasif TAHİROV***



## ŞAHMATÇIMIZ ŞƏHRİYAR MƏMMƏDYAROV FIDE-NİN REYTİNQ SİYAHISINDA DÖRDÜNCÜ PİLLƏYƏ YÜKSƏLİB

***Beynəlxalq Şahmat Federasiyası (FIDE) noyabr ayı üçün reytinq siyahısını açıqlayıb.***

Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov ötən ayla müqayisədə iki pillə irəliləyib. Reytinq siyahısında təmsilçimiz 2799 xalla dördüncü pillədədir.

Digər şahmatçımız Teymur Rəcəbov isə 2741 xalla 19-cu pillədə yer alıb. Arkadi Naydiç 2700 xalla siyahıda 44-cü, Rauf Məmmədov isə 2686 xalla 58-ci yerdədir.

Qeyd edək ki, reytinq cədvəlinə 2837 xalla norveçli Maqnus Karlsen başçılıq edir.

## BAKI LİMANININ ƏRAZİSİNDƏ “FİTZONA” İDMAN MEYDANÇASI AÇILIB

***“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin Əsas Yük Terminalında korporativ sosial məsuliyyət proqramı çərçivəsində “IVY GROUP” şirkəti ilə birgə təşkil etdiyi “Fitzona” idman meydançasının açılış mərasimi keçirilib.***

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin mətbuat xidmətindən bildirilib ki, “Fitzona” idman meydançası sağlam həyat tərzi, idman və həmrəyliyə yönəlmiş layihədir. Bütün dünyada uğur qazanmış və açıq hava şəraitində məşqləri nəzərdə tutan bu layihə Cənubi Qafqazda ilk dəfə Azərbaycanda reallaşdırılıb. Qeyri-kommersiya və sosial xarakter daşıyan layihənin əsas məqsədi gəncləri sağlam həyat tərzi, ictimai fəallıq, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsidir.

“IVY GROUP” şirkətinin təsisçisi Tamerlan Vahabov qeyd edib ki, fitzona konsepti dünyanın bütün böyük şəhərlərində uğurla tətbiq olunur: “Fitzonalar dünyanın əksər müasir şəhərlərinin tərkib hissələrinə çevriliblər. Bu gün Nyu-York, London, Sidney, Tokio və başqa şəhərlərdə onlarla fitzonalar fəaliyyət göstərir. Şadam ki, bu gündən etibarən qeyd olunan şəhərlər sırasında Bakını və Xəzərin ən qədim limanı olan Bakı Limanının adını sadalaya bilərik”.




Bakı Limanının baş direktoru Taleh Ziyadov aparıcı limanları hər zaman ən son texnoloji yeniliklər, inkişaf və müasir menecment alətlərinin geniş tətbiq olunduğu məkan kimi xarakterizə edib: “Şəhərin ən gözəl yerlərindən birində sosial layihə olan, brendə çevrilmiş “Fitzona”nın Bakı Limanında fəaliyyətə başlaması bizim üçün sevindirici haldır. Bu gün açılışını etdiyimiz və dənizkənarı bulvarın yanında yerləşən “Fitzona” Bakı şəhərinin sakinləri və qonaqları üçün ən rahat məkan olacaq”.

Çıxış edən qonaqlar arasında Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Olimpiya çempionu Fərid Mansurov və Milli Məclisin deputatı Adil Əliyev Azərbaycanın idman ölkəsi kimi tanındığını, ölkəmizin bir sıra beynəlxalq idman yarışlarına, o cümlədən I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi oyunlarına ev sahibliyi etdiyini vurğulayıb, “Fitzona”nın sağlam həyat tərzi sürən hər kəs üçün əhəmiyyəti qeyd edilib.

Tədbirin açılış mərasimində ölkənin aparıcı idmançıları, ictimaiyyət nümayəndələri, həmçinin “Qəhrəmanların avtomobil yarışı” çempionları iştirak ediblər. Açıq havada keçirilən tədbirdə iştirakçılar Avrasiyanın “Strong Man” çempionlarından master-klass almaq və “KrosFit” üzrə birinci dərəcəli mütəxəssislər ilə birgə məşq etmək şansı qazanıblar.



## ZAUR CAVADOV DÜNYA ÇEMPİONU OLDU

***“Arena Riqa”da “KOK World Grand Prix in Riga 2017” döyüş şousunun dünya Qran-Prisi çərçivəsində döyüşləri keçirilib.***

Latviyanın ən yaxşı kikboksçusu Zaur Cavadov yarımağır çəki dərəcəsində (77 kiloqramadək) Moldovadan olan Sergey Morarinin çempion titulunu əlindən alıb. Moldovalı nokautla uduzub.

## BAKI BATUT GİMNASTİKASI ÜZRƏ 26-CI AVROPA ÇEMPİONATINA HAZIRLAŞIR



***Gələn il aprelin 12-dən 15-dək Bakıda batut gimnastikası, tamblinq və ikili mini batut üzrə 26-cı Avropa çempionatı keçiriləcək.***

Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, ötən həftə cari ilin sonuncu Avropa çempionatı başa çatdıqdan sonra diqqət 26-cı qitə birinciliyinə yönəlib.

Bakıda keçiriləcək batut gimnastikası üzrə Avropa çempionatının yerli təşkilat komitəsinin təşəbbüsü ilə Avropa Gimnastika İttifaqının (UEG) baş direktoru Liza Uortman (Almaniya), batut gimnastikası üzrə texniki komitəsinin prezidenti Vladimir Zeman (Çexiya) və UEG-nin işçi heyəti Milli Gimnastika Arenasında olub.

Milli Gimnastika Arenası proqramına tamblinq, ikili mini batut və batut gimnastikası üzrə fərdi və sinxron çıxışların daxil olduğu və iki ildən bir keçirilən Avropa çempionatı üçün ideal məkandır. Birinci Avropa Oyunlarının gimnastika yarışları məhz bu məkanda ən yüksək səviyyədə təşkil edilib. Əminliklə demək olar ki, hər il dünya kubokları seriyalarına uğurla ev sahibliyi edən Azərbaycan bu sahədə zəngin təcrübəyə malik peşəkar təşkilatçıdır.

Federasiyanın baş katibi Fərid Qayıbovun rəhbərliyi ilə təşkilatçılar UEG heyətini yarış məkanı, avadanlıq, alətlərlə və onların təklif olunan yerləşdirilmə planı ilə tanış ediblər.

Səfər çərçivəsində UEG-nin qlobal tərəfdaşı olan “SmartScoring” şirkətinin təmsilçiləri ilə xalların hesablanması sistemi və yarış cədvəli müzakirə edilib.

## NÖVBƏTİ FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİSİ ÜÇÜN KÖNÜLLÜLƏRİN QƏBULUNA START VERİLİB




***“Bakı Şəhər Halqası” Əməliyyat Şirkəti (BŞH) gələn il aprelin 27-29-da keçiriləcək növbəti Azərbaycan Qran-prisi üçün könüllülərin qəbuluna başlayıb.***

BŞH-dən bildiriblər ki, bir sıra yeniliklərin nəzərdə tutulduğu builki qəbul zamanı yarışın könüllüsü olmaq istəyən namizədlərdən xarici dil bilikləri tələb olunur.

Həmçinin builki hazırlıq prosesində daha çox peşəkar inkişafyönümlü təlimlərə yer veriləcək və könüllülərin müxtəlif sahələrdə işləmək bacarıqlarının inkişaf etdirilməsinə xüsusi diqqət göstəriləcək.

Gələn mövsüm keçiriləcək Azərbaycan Qran-prisinin təşkilatçılıq işlərinə, ümumilikdə 3 min könüllünün cəlb olunması nəzərdə tutulur.

Müsahibə mərhələsini uğurla keçən hər bir könüllü insan resursları, işçi qüvvəsi, media əməliyyatları, tamaşaçı xidmətləri, şəhər əməliyyatları, marşal klubu əməliyyatları, inzibati əməliyyatlar, hava limanı əməliyyatları və digər istiqamətlərdən birinə yönləndiriləcək.

BŞH-nin insan resursları və işçi qüvvəsi şöbəsinin rəhbəri İranə Əhmədova növbəti yarış mövsümünə hazırlığın builkindən geri qalmayacağını bildirib: “Əsas məqsədimiz könüllülərimizin inkişafıdır. Biz bu istiqamətdə səmərəli addımlar atmağa çalışırıq. Könüllülərin böyük əksəriyyəti Azərbaycan gəncləridir. Biz onların fərdi inkişafını təmin etməklə ölkə gəncliyinin inkişafına öz töhfəmizi verməyə çalışırıq”.

İranə Əhmədova bildirib: “Hər zaman öz üzərində işləyən və yüksək bacarıq nümayiş etdirən 50 könüllü cari ildə təşkil olunan Azərbaycan Qran-prisinin təşkilində məhz işçi kimi çalışmaq imkanı əldə etdi və bu işdə onlar özlərini tam doğrultdular. Bu, bizim və könüllülərimizin uğurudur. Həmçinin yarışdan əvvəl və yarış zamanı yüksək əzmkarlığı ilə seçilən ən fəal 5 könüllü İtaliya Qran-prisində iştirak etmək imkanı qazandı.

“Bakı Şəhər Halqası” Akademiyası könüllülərin yalnız yarışlara yüksək səviyyədə hazırlanmasına deyil, eyni zamanda, onların karyera baxımından da inkişaf edib uğur qazanmasına dəstək göstərir. Bu il də akademiyada könüllülərimizin fərdi və peşəkar inkişafı üçün müxtəlif istiqamətlərdə maraqlı seminarlar və danışıq klublarının təşkilini nəzərdə tutmuşuq.

Əminliklə deyə bilərəm ki, bu il könüllülərimizi çox sayda sürpriz gözləyir. Fürsətdən istifadə edərək yarışa öz töhfəsini vermək istəyən hər kəsi könüllülər proqramına qoşularaq Formula-1 yarışının təşkili işində yaxından iştirak etməyə dəvət edirəm”.

Qeyd edək ki, 2018-ci ildə keçiriləcək Formula-1 Azərbaycan Qran-prisində iştirak üçün azı 16 yaşında olmaq, ingilis dilini əla dərəcədə bilmək (əlavə xarici dil bilənlərə üstünlük veriləcək), gərgin rejimdə işləyə bilmək və güclü həvəs və əzmkarlığa sahib olmaq tələb olunur. Şərtlərə cavab verən hər bir şəxs http://volunteers.bakucitycircuit.com linkinə daxil olaraq könüllü kimi qeydiyyatdan keçə bilər.



## UŞU-SANDAÇILARIMIZ İTALİYADA KEÇİRİLƏN DÜNYA ÇEMPİONATINI 3 QIZIL VƏ 1 GÜMÜŞ MEDALLA BAŞA VURUBLAR

***İtaliyanın Karrara şəhərində keçirilən uşu-sanda üzrə dünya çempionatında Azərbaycan idmançıları 3 qızıl və 1 gümüş medal qazanıblar.***

Azərbaycan Uşu-Sanda Federasiyasından bildirilib ki, beş gün davam edən yarışda dünyanın 60-dan çox ölkəsini təmsil edən idmançılar mübarizə aparıblar. Azərbaycanın uşu-sandaçıları gərgin idman mübarizəsi şəraitində keçən çempionatda inamlı mübarizə apararaq uğurlu nəticələr əldə ediblər.

Ağır çəki dərəcəsində döyüşən Fuad Qasımov və Yuri Kim bütün rəqiblərini məğlub edərək dünya çempionu tutulunu qazanıblar. Medal hesabımızı artıran növbəti idmançı Rüstəm Həsənov olub. O, final döyüşündə məğlub olaraq gümüş medala layiq görülüb.

Çempionatda veteranlar arasında da döyüşlər keçirilib. Uşu-sanda üzrə milli komandamızın məşqçisi, boks üzrə Əməkdar Məşqçi Zaur Məmmədov bütün rəqibləri üzərində qələbə qazanaraq dünya çempionu adına layiq görülüb.

Beləliklə, Azərbaycan milli komandası uşu-sanda üzrə dünya çempionatını 3 qızıl və 1 gümüş medalla başa vurub.

## İDMANÇILARIMIZ KEMPO ÜZRƏ AVROPA ÇEMPİONATINDA FƏRQLƏNİBLƏR

***Rumıniyanın Buxarest şəhərində Kempo üzrə 10-cu Avropa çempionatı keçirilib.***




Azərbaycan Kempo Federasiyasından bildirilib ki, 22 ölkənin iştirak etdiyi yarışda Azərbaycan komandası da iştirak edib. Ölkəmiz çempionatda Azərbaycan Kempo Federasiyasının prezidenti Rauf İbrahimovun rəhbərliyi ilə səkkiz nəfərlik heyətlə təmsil olunub. Üç gün davam edən yarışda idmançılar Kempo Submişn Gi, Kempo Full və Kempo Semi versiyaları üzrə mübarizə aparıblar.

Təmsilçilərimizdən Kempo Full üzrə görüşlərdə Valeh Quliyev (+95 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Kempo Semi versiyasında Vüsal Qələndərov (-95 kq), Nicat Hüseynov (75 kq) gümüş, Şəmsi Hüseynov (70 kq) bürünc medal qazanıblar. Kempo Submişn növü üzrə isə iki idmançımız - Xəyal Məmmədzadə (75 kq) və Mahir Ələkbərov (65 kq) çempionatda üçüncü olublar.

Ümumilikdə Azərbaycan komandası xal hesabında üçüncü yerə laiq görülüb.

## SƏRBƏST GÜLƏŞÇİLƏRİMİZ RUSİYADAN 1 QIZIL VƏ 1 BÜRÜNC MEDALLA QAYIDIBLAR

***Rusiyanın Nefteyuqansk şəhərində Vladimir Semyonovun şərəfinə “Yuqra Kuboku” beynəlxalq turniri keçirilib. Rusiya, Almaniya, Macarıstan, İsrail, Qazaxıstan, Tacikistan, Türkiyə, Tunis, Ukrayna, Qırğızıstan və Ermənistan pəhləvanları ilə birgə turnirdə iştirak edən sərbəst güləşçilərimiz 1 qızıl və 1 bürünc medal qazanıblar.***



Bu barədə Azərbaycan Güləş Federasiyasından bildiriblər.

Keçirdiyi bütün görüşləri qələbə ilə başa vuran Aleksandr Qostiyev (86 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Təmsilçimiz ardıcıl olaraq Rusiya idmançıları Batırbek Çakulov, Artur Xaçatryan, finalda isə Zaur Makiev üzərində inamlı qələbə qazanıb.

Bürünc medalı isə yığmamıza 57 kiloqram çəkidə yarışan Mahir Əmiraslanov qazandırıb. Üçüncü yer uğrunda görüşdə güləşçimiz Rusiya idmançısı İsmail Qadjiyevdən üstün olub.

Komanda hesabında yığmamız Rusiyadan sonra ikinci yerdə qərarlaşıb. Üçüncü yeri isə Qazaxıstan komandası tutub.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Qərib Əliyev təmsil edib.

## AZƏRBAYCAN İDMANÇISI DÖYÜŞ NÖVLƏRİ ÜZRƏ DÜNYA ÇEMPİONATINDA QIZIL MEDAL QAZANIB

***İtaliyanın Karrara şəhərində döyüş növləri üzrə dünya çempionatı keçirilib.***



Azərbaycan Uşu-sanda Federasiyasından bildirilib ki, bu yarışda ölkəmizi 48 kiloqram çəki dərəcəsində yeniyetmələr arasında sanda üzrə ikiqat Azərbaycan çempionu Fətəli İsmayılov təmsil edib. İdmançımız Şotlandiya, İtaliya və Rusiyadan olan rəqiblərinə qalib gələrək dünya çempionatının qızıl medalını qazanıb.



## ALLAH RƏHMƏT ELƏSİN

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Gəmiçiliyin Audit departamentinin daxili auditoru Əlirza Əlirzayevə, anası

**Aida xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin Audit departamentinin kollektivi daxili auditor Əlirza Əlirzayevə, anası

**Aida xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3221